

## Milli Olimpiya Hərəkatı-30

8

# “ABŞ Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə önəm verir”

Səs

№ 058 (6499) 6 aprel 2022-ci il. Qiyməti 60 qəpik





3

*ABŞ Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib*



7

# Formalaşmaqda olan yeni dünya düzəni

**Rusiya və Ukrayna arasında olan qarşıdurma, müharibə bütün dünyanın diqqət mərkəzindədir və bu heç də təsadüfi deyil. Bunun da səbəbləri müxtəlifdir. Əvvəla, sözügedən müharibə çoxlu sayda insan tələfatına, yaşayış məntəqələrinin dağılmasına, şəhərlərin viran qalmasına, sağ qalan insanların sığınacaqlarda ...**



4

## Avropa Məhkəməsi Ermənistanın vəsatətini rədd etdi!



4



7

“HRAPARAK”:

## “Qarabağ erməniləri mühacirət etmək üçün qəti qərara gəliblər”

# Neymardan şok cavab:



16

## “Sərxoş idim, ona görə belə oldu... ”

QHT üzvləri

## Şuşada bir araya gəlib

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının növbəti iclası Şuşa şəhərində keçirilib. SİA xəbər verir ki, iclası Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya...

## Azərbaycan Ordusu Qarabağda hansı mövqelərdə irəliləyir?





## Azərbaycanda korrupsiyaya qarşı mübarizə gücləndirilir

13

Sosial ədalət və demokratik prinsiplərə əsaslanan islahatlar ölkəmizdə milli və müasir idarəetmə modelinin...



## Valideynlər övladlarını dövlət bağçalarına qoya bilmir - SƏBƏB NƏDİR?

16

“Hazırda respublikada 1677 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Məktəbəqədər təhsil müəssisələrindən...

# "İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib"

*Prezident İlham Əliyev İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, turizm naziri Yoel Razvozovu qəbul edib*



**Prezident İlham Əliyev dünən İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğulayıb, həmçinin həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib.**

İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu deyib. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirib. Dövlətimizin başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu da diqqətə çatdırıb.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə edib. Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb.

İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayaraq uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirib. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğulayıb.

"İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu, çox önəmlidir", - deyən qonaq Ermənistanla Azərbaycan arasında danışıqların uğurlu olacağına və bunun da regionda sabitliyin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirib.

Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını dedi.

Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan İsrailin turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu qeyd edib.

## Rəsmi sənədlər

Prezident İlham Əliyev "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2005-ci il 26 dekabr tarixli 341 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli, "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin yaradılması və Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2007-ci il 12 noyabr tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında" 2014-cü il 7 may tarixli 160 nömrəli fərmanlarının ləğv edilməsi barədə Fərman imzalayıb.

## TÜRKSOY-un Baş katibi: "Şuşanı yenidən qurub dirçəltməklə türk dəyərlərini bərpa etmiş olacağıq"

**Mən özüm iki dəfə Şuşada olmuşam, oranı gəzmişəm və oradakı gözəlliyə bələdəm. Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir. Eyni zamanda, Şuşa insanlar üçün mədəniyyət qaynağıdır. Biz bu şəhərdə daha çox tədbirlər təşkil edəcəyik, çünki hər bir türkün ürəyində Şuşa sevgisi var.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Rayev ifadə edib.

Şuşa təəssüratlarını, işğal dövründə orada yaranmış acınacaqlı vəziyyət barədə fikirlərini bölüşən Baş katib deyib: "Mən axırıncı dəfə Şuşada olanda orada çox görkəmli şəxsiyyətlərin heykəllərini gördüm. Heykəllərin bu cür vəziyyətə salınması-nı gördükdə çox pis oldum. Ona görə də əvvəlcə biz şəhərin özünü bərpa etməliyik. Əgər biz bu şəhəri yenidən qursaq, eyni zamanda öz türklüyümüzü, türk dəyərlərini bərpa etmiş olacağıq. Biz Şuşanın bərpasına hərtərəfli kömək göstərəcəyik və onun inkişafını dəstəkləyəcəyik".




**Minalardan təmizlənmiş dünya insanların həyatını xilas etmək və davamlı inkişaf gələcəyini qurmaq üçün əsas şərtdir. AZƏRTAC xəbər verir ki, bu sözləri BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin müvəqqəti işlər vəkili Suhrob Hocimatov öz tviter hesabında paylaşımında qeyd edib.**

"Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günündə biz - BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyi hər kəsin təhlükəsiz gələcəyinin təmin edilməsi üçün Azərbaycan hökuməti və xalqı ilə işləmək öhdəliyini götürmüşük", - deyə S.Hocimatov bildirib.




## "Biz təhlükəsiz gələcəyin təmin edilməsi üçün Azərbaycan hökuməti və xalqı ilə işləmək öhdəliyini götürmüşük"



## “ABŞ Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə önəm verir”

*ABŞ Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib*

Aprelin 5-də Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Antoni Blinken aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirib.

Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təklifləri və mövqeyini qeyd edib.





Dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən itkin düşmüş hesab olunan 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsi və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırıb. Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyevdən

# Ermənistana ÇAĞIRIŞ: “Hələ ki, gec deyil..."

**Otuz il Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistan 44 günlük müharibədə minlərlə itki verərək darmadağın edildi. Bu, Ermənistanın yaxın yüz ildə ən böyük məğlubiyyəti kimi tarixə düşdü. Buna baxmayaraq, bu gün də Ermənistanda köhnə iqtidar klanlarına, hərbi xuntaya məxsus bəzi siyasi qüvvələr revanş niyyətindədirlər. Daha doğrusu, Ermənistanda məğlubiyyətlə razılaşa bilməyən işğal və terror xisləti dairələr ölkənin imza atdığı kapitulyasiyaya qarşı çıxır, Azərbaycanı növbəti təxribatlarla, müharibə ilə hədələməyə çalışırlar.**

Şübhəsiz, onların hakimiyyət uğrunda mübarizələrinin təməlində də revanş məqsədi dayanır. Xüsusilə də, son günlər ayrı-ayrı rəsmi qurumların, məsul şəxslərin və Ermənistan Xarici İşlər Nazirliyinin 24 mart tarixli bəyanatı göstərir ki, bu dövlət növbəti dəfə beynəlxalq ictimaiyyəti yanlış istiqamətə yönəltməyə cəhd edir. Onların əsassız bəyanatında guya Azərbaycanın bölgədə vəziyyəti gərginləşdirdiyi ilə bağlı ittihamlar yer alıb. Sözsüz ki, bu, erməni mənbələri tərəfindən uydurulmuş və heç bir əsası olmayan fikirlərdir. Məqsəd vəziyyəti süni şəkildə şişirtmək və gərginlik yaratmaqla öz havadarlarının diqqətini bölgəyə çəkmək niyyətidir. Şübhəsiz, onların belə açıqlamaları, belə niyyətləri gülüş doğurur. Çünki Vətən müharibəsində ordusu tar-mar edilən, hazırda böhran içində çabalayan bir ölkənin ”siyasilər”inin həmin çağırışlarını yalnız xam xəyal kimi yozmaq olar.

### ERMƏNİSTANDA REVANŞİZM FİKRİNƏ DÜŞƏNLƏR BİLMƏLİDİRLƏR Kİ....

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Ermənistanda siyasətçilər hər zaman hakimiyyətə gəlmək üçün populist çıxışlar ediblər, sonra real vəziyyətlə üzləşəndə bunun əziyyətini çəkiblər və onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Dövlətimizin başçısı, həmçinin vurğulamışdır ki, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır: ”Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır. 10 noyabr Bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək.” Bununla da Azərbaycan Prezidenti Ermənistanda revanşizm fikrinə düşənlərə bir daha öz açıq mesajlarını vermişdir.

Şübhəsiz, Vətən müharibəsində Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi erməni vəhşilərindən təmizləməklə, erməni ordusunu, erməni faşizmini məhv etməklə öz tarixi missiyasını yerinə yetirdi və sözün həqiqi mənasında, Ermənistanın dərsini verdi. Mütəxəssislərin fikrincə, əgər erməni faşizmi bir daha baş qaldırsa, Ermənistanın bir dövlət kimi varlığına son qoyula bilər. Unutmasınlar ki, Vətən müharibəsində düşmənə qan udduran Azərbaycanın dəmir yumruğu hazır vəziyyətdədir və bu missiyanı da yerinə yetirməyə qadirdir. Çünki bu fikirə düşənlərin elə bir dəstəyi də yoxdur. Əvvəl arxalarında duran qüvvələr var idi. Amma Vətən müharibəsində Azərbaycanın qüdrətini görən həmin qüvvələr daha onları dəstəkləmirlər. Bütün bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, ölkəmizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində faşist xisləti revanşistlərin çağırışları bütün hallarda havada qalacaq və heç bir qüvvə bizi bundan sonra azad etdiyimiz torpaqlardan tərpədə bilməyəcək.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycanın təklifləri kifayət qədər obyektiv və ədalətlidir. Ümumiyyətlə, dünya təcrübəsində sülh sazişinin imzalanmasının ilkin şərtləri də başlıca olaraq Azərbaycan dövlətinin müddəalarında nəzərdə tutduğu ilə eyni olur. Əgər ərazi münaqişəsidirsə, tərəflər sərhədlərin müəyyənləşdirilməsi, ərazi iddialarının aradan qaldırılması və ərazi bütövlüyünə hörmətin nümayiş etdirilməsini başlıca şərt kimi ortaya qoyurlar. Azərbaycanın da başlıca şərti sərhəddə delimitasiya və demarkasiyanın aparılmasıdır. Ancaq bu günə kimi Ermənistan tərəfindən bununla bağlı hansısa addım atıldığını müşahidə etmirik. Lakin Azərbaycan hərbi gücü hesabına torpaqlarını işğaldan azad edib və Minsk Qrupunun 30 il müddətində bacarmadığını 44 gün ərzində reallaşdırıb. Azərbaycan güclü mövqeyini möhkəmləndirir və torpaqlarını daha inamla və qətiyyətlə qoruyur. Ona görə də Azərbaycanın atdığı təsirli addımlar Ermənistanı sülhə məcbur edir və başqa yolu yoxdur.

### “İSTƏNİLƏN SÜLH MÜQAVİLƏSİ ERMƏNİSTAN ÜÇÜN, SADƏCƏ, KAĞIZ PARÇASI OLA BİLƏR”

Göründüyü kimi, son günlər baş verən proseslər bir daha sübut edir ki, bu gün Ermənistan sülhə əngəl olmaq üçün əsassız bəyanatlarından, təxribatlarından hələ də əl çəkmir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb və bildirib ki, istər müharibə, istər keçmiş Qarabağ münaqişəsinin həlli, istərsə də gələcəklə bağlı siyasətimiz tam aydındır: ”Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki, biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər”.

Dövlət başçısı onu da vurğulayıb ki, heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın: ”Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müxtəlif çıxışlarda, müsahibələrdə müharibədən əvvəl deyirdim ki, bizə yarımçıq hansısa sülh müqaviləsi lazım deyil”.

Və bu gün Azərbaycanın haqlı tələbi: belə davam etsə...Yəni ermənilər sülh, sabitlik, əmin-amanlıq və inkişaf istəyirlərsə, onda Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Əks-təqdirdə onlar üçün sülh də olmayacaq, sabitlik də, əmin-amanlıq da. Üstəlik, iqtisadi böhrandan heç zaman xilas ola bilməyəcəklər. Ancaq qeyd edək ki, Azərbaycanın təklif etdiyi beş şərtdə sülh danışıqlarını əngəlləyə biləcək heç bir məqam yer almır. Rəsmi İrəvanın həmin şərtlərə etdiyi əlavələrdə mübahisə doğuracaq və danışıqlar prosesini uzada biləcək iddiaların olduğu isə qətiyyən istisna deyil. Üstəlik, rəsmi İrəvanın öz cavabını və beş şərtə əlavələrini Minsk Qrupu həmsədrləri üzərindən Azərbaycana göndərməyə çalışması da kifayət qədər müəmmalı məqamdır. Çünki Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesinə vasitəçilik missiyasını öz üzərinə götürmək səlahiyyəti yoxdur. 44 günlük savaşın nəticələri bu qurumun, hətta fəaliyyətinə etiyac qalmadığını da təsdiqləyib. Bütün bunları nəzərə aldıqda, Paşinyan hakimiyyətinin sülh danışıqları prosesinə konstruktiv mövqedən yanaşdığını düşünmək hələ çox çətindir. Çünki rəsmi İrəvan bir tərəfdən Azərbaycanın şərtlərini qəbul etdiyini və sülh danışıqlarına hazır olduğunu bəyanlayır. Digər tərəfdən isə, bu prosesi qəlizləşdirə biləcək alternativ addımlar atmağa çalışır. Və Ermənistanın belə ziddiyyətli davranışlarla sülh danışıqlarını mümkün qədər uzatmaq niyyətində olduğu istisna deyil. Bu baxımdan, Paşinyan hakimiyyətinin Ermənistanın xarici himayədarlarından danışıqlar prosesində dəstək qarantiyası almadan sülh müqaviləsinin imzalanmasına həvəs göstərəcəyi o qədər də inandırıcı görünmür. Böyük ehtimalla rəsmi İrəvan son 30 il ərazində Minsk Qrupu həmsədrlərinin sayəsində vərdiş etdiyi danışıqlar modelinə can atır. Və Paşinyan hakimiyyətinin hiyləgər manevrlərinin də bu baxımdan, nəticəsiz qalma ehtimalı tamamilə real təsir bağışlayır. Çünki hazırda məhz Azərbaycan Prezidenti İlham Əliyev sülh sazişinin şərtlərini diktə edir. Paşinyan hakimiyyəti sülh istəyirsə, rəsmi Bakının bütün tələblərini qəbul etmək məcburiyyətindədir. Və rəsmi İrəvan buna qarşı çıxmağa yönəlik manevrlərini davam etdirərsə, yaxın vaxtlarda daha ağır şərtlərlə üzləşə bilər. Beləliklə...

### ERMƏNİSTANIN BLOKADA ŞƏRAİTİNDƏ ”BOĞULMA” DÖVRÜ DƏ UZANACAQ...

Bir sözlə, Ermənistan Xankəndi və ətraf bölgənin Azərbaycan ərazisi olduğunu rəsmən etiraf edənə qədər rəsmi Bakı sülh sazişi imzalamaz; Rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünün tanınmasını gecikdirdikcə, Ermənistanın blokada şəraitində ”boğulma” dövrü də uzanacaq... Və indi vəziyyət uzandıqca Ermənistanın daha çox ziyan çəkəcəyindən də birmənalı şəkildə əmindir. Ona görə də Paşinyan hakimiyyəti Ermənistanı düşdüyü ”geopolitik quyu”dan çıxartmaq yolu - Ermənistanın sülh sazişi imzalamaq istəyini reallaşdırmaq, əks halda, Ermənistanın blokada şəraitində ”boğulma” dövrü uzanacaq. Və əgər kimsə bu prosesə mane olmaq istəsə, onda başı üstündə ”dəmir yumruğu” görəcək.

Ümumilikdə, dövlət başçısının dediyi kimi: ”Hələ ki gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü”.

***RƏFİQƏ HÜSEYNOVA***

# Prezidentin apardığı siyasətə

## CƏMİYYƏTİN BAXIŞI

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi vaxtdan bu günə qədər bir çox sahədə yeni islahatlar aparmış, dövlətin inkişafı istiqamətində bir sıra yeni layihələrə imza atmışdır. İlham Əliyev 2018-ci ildə növbəti dəfə prezident seçilərək xalqın rəğbətini qazandığını göstərmişdir.***

Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində 30 il işğal altında olan torpaqlarımız azad olundu. İstər idman, istər siyasət, istər iqtisadiyyat, istərsə də sosial sahədə bir çox uğurlar əldə edilmiş, Azərbaycan dövləti bütün dünyada nüfuz qazanmışdır. Xalqın rifahının yaxşılaşdırılması üçün tədbirlər planı həyata keçirmişdir. Bəs görəsən şəhər sakinləri cənab Prezident İlham Əliyevin uğurlu siyasəti ilə bağlı nə düşünürlər. SİA olaraq sorğu keçirdik:



**Şəhər sakini Sənubər Balayeva:**




"Prezidentin uğurlu siyasəti nəticəsində biz Qarabağı düşmən tapdağından azad etdik. Neçə ildir ki, bunu gözləyirdik. İlham Əliyev xalqın yaxşılığı üçün tədbirlər görmüş, xalqı hər zaman diqqət mərkəzində saxlamışdır".

**Şəhər sakini Balayar Mərdanov:** "Azərbaycan xalqı hər zaman Prezidentimizə inanıb. Onun qərarları dövlətimizi daim zirvələrə daşıyır. Torpaqlarımızı düşməndən xilas etdik. İndi Cənab prezident həmin ərazilərin inkişafı üçün bir sıra tədbirlər görür. Şəhid




ailələrinə, qazilərə, müharibə iştirakçılarına müəyyən köməkliyin qöstərilməsi üçün göstərişlər verir".

**Şəhər sakini Xəzangül Musayeva:** "Prezident İlham Əliyevin siyasəti nəticəsində ölkəmiz dünyada tanınan, öz sözünü düməyi bacaran dövlət kimi




tanındı. Bütün gücünü Azərbaycanın inkişafına həsr edib. Xalqımız hər zaman onun arxanındadır. Hər zaman dövlətimizin rifahını düşünən Prezident ölkəmizin çiçəklənməsi üçün əlindən gələni edir".

**Şəhər sakini Alim Naibov:** "Cənab Prezident hər zaman dövlətin mənafeyini fikirləşmiş və bu istiqamətdə də fəaliyyət göstərmişdir. İdmanımız inkişaf edib. Bu sahədə ciddə tədbirlər görülüb. Həmçinin digər sahələr üzrə




də yeni-yeni uğurlar əldə etmişik. Ən böyük uğurumuz Qarabağı düşmən tapdağından xilas etməyimizdir. Cənab Prezidentin və rəşadətli ordumuzun gücü sayəsində düşməni məğlub etdik. Torpaqlarımızı azad etdik. Cənab Prezidentə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıram. Bilirik ki, o, hər zaman xalqı düşünür".

**Şəhər sakini Mələhət Ağayeva:** "Dövlətimizin inkişaf etməsində Cənab Prezidentin böyük rolu vardır. Onun sayəsində dövlətimiz inkişaf etmiş, bir çox uğurlara imza atmışdır.




Elm, təhsil sahəsində, mədəniyyət sahəsində xeyli işlər görülmüşdür. Fəaliyyəti boyu hər zaman dövlətimizin haqq işini müdafiə etmişdir".

**Şəhər sakini Hicran Babayeva:** "Cənab Prezident bir çox istiqamətlərdə dövlətimizi layiqincə təmsil edib. Bir çox dövlətlərlə diplomatik əlaqələr




qurub. Bunların hamısı dövlətimizin tanınması üçündür. Azərbaycan güclü dövlətlərdən birinə çevirilib".

SORĞU

***Abutel İlhamqızı***

## QHT üzvləri Şuşada bir araya gəlib

Azərbaycan Respublikasının Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının növbəti iclası Şuşa şəhərində keçirilib. SİA xəbər verir ki, iclası Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev açaraq gündəliyə daxil olan məsələlər barədə məlumat verib.

V. Quliyev "Şuşa ili"nə həsr edilmiş xüsusi qrant müsabiqəsi və 2022-ci il üçün kiçik qrant müsabiqələrinin mövzuları barədə fikirlərini bildirərək QHT-lərin hər iki müsabiqəyə ictimai əhəmiyyət kəsb edən layihələr təqdim edəcəyinə əmin olduğunu vurğula-



yıb. İclasda qonaq qismində iştirak edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək Agentliyin "Şuşa ili"nə həsr edilmiş qrant müsabiqəsi keçirməsindən məmnun olduğunu vurğulamış, bu məqsədlə birgə müzakirənin təşkil edilməsinin səmərəli olduğunu bildirmişdir.

Müşahidə Şurasının üzvləri müsabiqə mövzuları ətrafında müzakirələr aparıblar və müvafiq qərarlar qəbul ediblər. Qeyd edək ki, Agentlik yaxın günlərdə hər iki müsabiqəyə layihələrin qəbulunu elan edəcək.

## Avropa Məhkəməsi Ermənistanın vəsatətini rədd etdi!



İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistanın növbəti vəsatətini rədd edib. Xezerxeber.az-ın xəbərinə görə, bunu Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov bildirib.

Ç. Əsgərov qeyd edib ki, Avropa Məhkəməsi Azərbaycanın təqdim etdiyi mövqeyə uyğun olaraq 4 aprel 2022-ci ildə növbəti dəfə Ermənistanın müvəqqəti təminat tədbirləri barədə vəsatətini rədd edib: "Qonşu ölkə anlamalıdır ki, beynəlxalq hüquq olan yerdə siyasi spekulyasiyalar əhəmiyyətsizdir".

## "Qərb Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır"



Qərb Buça ətrafında isterikanı qızışdıraraq İstanbulda irəliləyiş əldə olunduğu Rusiya-Ukrayna danışıqlarını pozmağa çalışır. SİA APA-ya istinadən xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib.

Onun sözlərinə görə, Buçadakı təxribat Ukraynanın o cümlədən Krımla bağlı mümkün sülh müddəalarını ilk dəfə kağıza köçürdüyü zaman baş verib. Lavrov İstanbulda Ukrayna ilə danışıqlardan sonra yerlərdə gərginliyin azaldılmasının Rusiya Federasiyasının xoşməramlı jesti oıduğunu söyləyib: "Rusiya Ukrayna ilə danışıqlar masası arxasında vicdanlı və ardıcıl işləməyə hazırdır".

# NAXÇIVAN:

## taleyin hökmünə buraxılmış ada yaşıllıqlar diyarına çevrildi



**(II yazı)**

Səfərimizin ikinci günü yolumuz Türkiyə Respublikasına idi. Sədərək Gömrük-Keçid Məntəqəsinədək bir neçə saatlıq yol vardı qarşımızda. Martın 22-si olsa da, builki qışa nədənsə qısqanclıq hissi hakim kəsilmiş, yerini hələ də yaza vermək fikrində deyildi. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da hava yağışlı-qarlı idi. Lakin yazda yağan bu qar yolboyu aran bölgələrdə ağacların çiçəyi, hələ ağacları çiçəkləməmiş yerlərdə isə partlamaq anında olan tumurcuqların üzərinə yağırdı. Qarşımızda gözəl bir mənzərə açılmışdı: ağappaq çiçək və ağappaq qar. Sanki bəyaz örpəklər üstüstə sərilib hansının gözəl olmasını onlara heyranlıqla baxanlardan soruşurdu. Lakin çox keçmədi ki, günəş doğdu, ağacların çiçəkləri üzərindən qar örpəyi bir andaca yoxa çıxdı. Bir qədər sonra isə yenidən qar yağmağa başladı, yenə də ağacların örpəkləri ikiləşdi. Elə bil uzun yolun ağırlığını azaltmaq üçün qışla yaz bir tamaşa seyr etdirirdi yolçulara. Göz baxdıqca uzanan sıra ilə əkilmiş hər yaşda olan ağaclarsa yenə də yol yoldaşlarımın heyranlıqla tamaşa etdikləri və müzakirəyə çevirdikləri mövzu oldu. Düşünürdüm ki, onlar buraya yazın ortaları, yay fəslində gəlsələr, yaşıllıqlara valeh olarlar. Çünki bir azdan ağacların budaqlarını çırtıb günəşə boylanacaq kiçik yarpaqcıqlar böyüyərək bütöv ağacları ağuşuna alacaq və hara baxsan oxşar mənzərələrlə yalnız sonsuz yaşıllıqları görəcəksən.

### Elə bu arada

Təbiətə tamaşa etməklə yanaşı, həm də sosial şəbəkələrdə gəzişmək uzun yolu qısaltmaq metodlarından olduğu üçün telefonu əlimə aldım. Təsadüfə bax ki, bayaqdan bəri aramızda gedən söhbətlər fonunda belə bir maraqlı yazıya rast gəldim: "İngilis Brendon Grimşou 13000 dollara Seyşel adalarında özünə kiçik bir ada aldı və ora köçdü. Brendonun 40 yaşı olanda o, işini atdı və yeni həyata başladı. Həmin zaman adada artıq 50 ildir heç kəs yaşamırdı və Brendon özünə yoldaş tapdı və onlar birlikdə adanı evə çevirməyə başladılar. 39 il ərzində Grimşou və onun köməkçisi Rene Laforten öz əlləri ilə 16000 ağac əkdilər. 2007-ci ildə Rene vəfat edir və Brendon adada yalnız qalır. Onun artıq 81 yaşı vardı. O adaya 2000 yeni quş növlərini və dünyanın başqa yerlərində yox olmaq həddində olan 100-dən artıq nəhəng tısbağalar gətirdi.

Bir zamanlar ada artıq cənnətə dönəndə Səudiyyə Ərəbistanının şahzadəsi Brendona ada üçün 50 milyon dollar təklif etdi, amma o imtina etdi. Dedi ki, "istəmərəm ki, bu ada varlıların əyləncə məkanına dönsün. Yaxşı olar ki, bura hər kəsin əylənə biləcəyi milli park olsun". Buna nail oldu. 2008-ci ildə ada Milli Park adını qazandı".

Sözün həqiqi mənasında, bu kiçik bir yazı mənə çox təsirli gəldi. Ona görə ki, yazının bəzi nüansları Naxçıvanın dünənini və bu gününü gözlərim önündə canlandırdı. Avtomobilin pəncərəsindən hələ də görünən sıx ağaclıqlar isə beynimdə dolaşan fikirlərlə o qədər üst-üstə düşürdü ki... Axı Naxçıvan da bir zamanlar öz taleyinin ümidinə buraxılmış adaya oxşayırdı. Dörd bir tərəfi sanki su ilə əhatə olunmuş bu diyar çıxış yolu tapa bilmirdi. Hansı səmtə dönürdüsə, yenə eyni görüntülər idi. Çarə isə bu adadaca nə edirsən, özün et, idi.



### Bomboz ada

Coğrafiyasına görə yaşıl rəngdən çox boz rəngin üstünlük təşkil etdiyi Naxçıvan dağlıq ərazilərdən ibarət olduğu üçün bu rəng daha çox gözə görünən olub. Demirəm ki, Naxçıvanda yaşıllıq az olub. Burada meşələr də var, bağ-bağatlar da. Lakin dağın-daşın rəngi yaşılı üstələyib həmişə. Xüsusilə 1990-larda, blokadanın ilk illərində olub-qalan yaşıllıqlar da insanlar tərəfindən məhv ediləndə boz rəng daha çox hakim kəsilmişdi bu diyara. İnsanları qınamaq isə mümkün deyil. Çünki qazsız, işıqsız qalan Naxçıvan əhalisi son çarəni meşələrdə, bağ-bağatlarında, həyətlərində ata-babalarının əlləri ilə əkdikləri bar ağaclarında belə görürdü. Bu ağacların hər biri kəsildikcə qolunun kəsildiyini hiss edən insanlar üçün başqa yol yox idi. Ya ağaclara dəyməyib donub ölməliydilər, ya da bu ağır həyatla mücadilənin əsas şərti olan istiliyi əldə etmək üçün ağacları doğramalı idilər. Elə bu səbəbdən də Naxçıvanın hər tərəfində təbiət qəbiristanlıqları yaranmışdı. Gövdəsi torpaqdan bir-iki qarış yuxarıdan kəsilən ağacların buradan boylanan məzlum görüntüsü yaradırdı bu mənzərəni. Meşələr tükənmişdi, yol kənarları, həyət-bacalarda ağaclar yoxa çıxmışdı. Naxçıvanın qazla təminatına hələ uzun illər vardı. Lakin elektrik enerjisi müəyyən fasilələrlə də olsa, verilməyə başlanmışdı. Bütün bunlar isə ulu öndər Heydər Əliyevin yenə də şəxsi nüfuzu, qonşu dövlətlərlə apardığı danışıqlar nəticəsində mümkün olmuşdu. Təbiətin bu miskin görüntüləri də onu çox narahat edən məsələlərdən idi. Odur ki, ulu öndərin təşəbbüsü ilə "Hərə bir ağac əksin!" kampaniyasına başlanıldı. Beləliklə...

### Bozdan yaşıla doğru

Bəli, bu ada hələ ulu öndərin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı ilə kimsəsizlikdən çıxmış, öz xilaskarını, arxalana biləcəyi böyük qüvvəni tapmışdı. Bir el ağsaqqalının ətrafında sıx birləşmək, böyük sözü dinləmək, birlik omaq isə Naxçıvanın uzun illərdən bəri blokada şəraitində inkişafına səbəb oldu. I yazıda sadaladıqlarımın fonunda yaşıllıqların bərpası və artırılması da görülən işlərin əsas istiqamətlərindən birinə çevrildi. Beləliklə ötən 20-25 ildə Naxçıvan öz coğrafiyasına məxsus boz rəngini dəyişib yaşılın üstünlük təşkil etdiyi diyara çevrildi. Bu işdə hər yaz, payız fasilələrində keçirilən iməciliklərin böyük rolu oldu. Yadımdadır, iməciliklərə yeni start verilən vaxtlarda heç də bütün insanlar bunu birmənalı qarşılamır, vaxtilə donmamaq üçün kəsib məhv etdikləri ağacları bərpa etməyə qəribə baxır, bunu kimlərinsə etməli olduğunu düşünürdülər. Lakin Naxçıvana kənardan ağac gətirib əkməyəcəkdilər ki. Bunu bu yerin insanları etməli idilər. Bu sahədə də köməyə maarifləndirmə işləri gəldi. Çox keçmədi ki, insanlar əllərində tinglər iməciliklərə çıxdılar. Muxtar respublikada həyata keçirilən ekoloji siyasətin məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcüd ekoloji sistemlərin, idtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın saxlanılmasından ibarətdir. Muxtar respublikanın təbii iqlim xüsusiyyətləri və relyefi, xüsusilə sənayenin müxtəlif sahələrinin inkişafı nəzərə alınaraq region üçün ən mühüm ekoloji amil olan meşələrin, yaşıllıqların qorunması və artırılması sahəsində görülən işlər nəticəsində meşə ehtiyatları dəfələrlə artırılmışdır. Hazırda muxtar respublikanın ümumi ərazisinin 20 faizə yaxınını yaşıllıqlar əhatə edir. 1990-cı ilin əvvəllərində isə bu göstərici 0,6 faiz həddində olmuşdur. Ekoloji mühütin sağlamlaşdırılması, ekoturizm potensialının inkişaf etdirilməsinin dəstəklənməsi məqsədilə ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının ərazisi, Şahbuz Dövlət Təbiət Qoruğu, habelə muxtar respublikanın Culfa və Ordubad rayonlarının inzibati ərazisində olan dövlət meşə fondu, Şahbuz, Culfa və Ordubad rayonlarının inzibati ərazilərindəki yay otlaqlarının torpaqları hesabına genişləndirilmiş, 42 min 787 hektar ərazidə Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılmışdır.

Muxtar respublika ərazisində məskunlaşmış nadir və nəsli kəsilmək təhlükəsi olan bitki və heyvan növlərinin qeydiyyatının aparılması və xüsusi mühafizə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub artırılmasına, xüsusi qaydada mühafizə edilməsinə təminat yaratmışdır.

### Yaşıllıqlar həm də yolçunun nübar payı, əsgərlərimizin meyvə sovqatıdır

Bəli, bu heyranlıq duyulan bu yaşıllıqlar heç də asanlıqla başa gəlməyib. Uzun illərin zəhməti, minlərlə tingin əkilməsi, onların suvarılması, suvarma arxlarının çəkilməsi, damçı üsulu ilə böyük ərazilərin bu sistemə salınması, artezian və kaptajların vurulması, gübrə verilməsi, ağartma işlərinin vaxtında görülməsi, hər il yazda qurumuş ağacların yenisi ilə əvəzləşdirilməsinin vaxtlı-vaxtına həyata keçirilməsi nəticəsində əldə olunub. Maraqlı faktlardan birini də vurğulayım ki, bu diyarın heyrətamiz yaşıl görüntüsü içərisində başqa bir heyrətamizlik də var. Bu da yol kənarlarının, parkların, bağların yaşıllığına xidmət edən ağaclar arasında meyvə ağaclarının da çoxluq təşkil etməsidir. Elə ki, yay gəldi bu ağaclar qırmızı, sarı, sarı-qırmızılı örpəyini başına salır. Gilənar, gilas, ərik, şaftalı, alma ağaclarının meyvəsi yolçunu yoldan etməklə yanaşı, həm də onların nübar payı olur. Onu da xüsusilə vurğulayım ki, bu ağaclardan dərilən tonlarla meyvə hərbi hissələrə əsgərlərimizə sovqat olaraq göndərilir.Bəli, Blendonun adada yaratdığı və kimsəyə verməyə qıymadığı Milli Parkdan fərqli olaraq Naxçıvanın adanı yarıb yaşıllıqlara doğru açdığı yolda həm Milli Park, həm Dövlət qoruqları, həm turistlərin, qonaqların üz tutduğu ünvan, həm insanların zəhmət payı, həm də qədim diyara minlərlə insanın böyük sevgisi var. Elə bu sevgi ilə Blendonun adasına oxşar cəhət olaraq naxçıvanlılar onu 1990-cı illərdə düşməndən canları bahasına qorudular. Naxçıvan indi də qorunur, yaxın gələcəkdə Zəngəzur dəhlizi ilə Vətəninə qovuşacağı günü səbirsizliklə gözləyir. Çünki o yollar Naxçıvanı daha böyük inkişafa aparacaqdır.

***Mətanət Məmmədova***

# BRÜSSEL GÖRÜŞÜ:

# Azərbaycan-Ermənistan danışıqları nə vəd edir? - Ekspertlər şərh edir

**Aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının rəhbərinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçiriləcək. Aİ nümayəndəsinin sözlərinə görə, iki ölkənin liderləri ötən il dekabrın 14-də analoji danışıqlardan sonra baş verənləri, həmçinin ”bütün insanların rifahı naminə təhlükəsiz, sabit və firavan Cənubi Qafqaz qurmağın gələcək yollarını” müzakirə edəcək. Aİ həmçinin qeyd edib ki, Aİ ”Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin edilməsi işinə sadiq qalır”.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



Hazırkı vəziyyətdə Əliyevlə Paşinyan arasında Aİ platformasında gözlənilən görüşdən hansı nəticələr gözləmək olar və belə bir görüş nə deməkdir- bu məsələləri rusiyalı ekspertlər ”Moskva-Bakı” platformasına şərh ediblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

**Politoloq Yevgeni Mixaylov:**

- Brüsseldəki üçtərəfli görüşdən müsbət gözləntilərim yoxdur. Sülh müqaviləsindən danışırıqsa, Ermənistanın mövqeyi özü ilə ziddiyyət



təşkil edir. İrəvan 1990-cı illərin əvvəllərində MDB-nin yaradılması haqqında sazişi imzalamaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını təsdiq etdilər, lakin bu, Ermənistan tərəfinin sonradan Azərbaycanın ərazilərini işğal edərək ərazi bütövlüyünü pozmasına mane olmadı. Digər tərəfdən, İrəvan Qarabağın statusu və Qarabağ ermənilərinin hüquqları məsələsini gündəmə gətirir və bunun ”ərazi məsələsi deyil, hüquq məsələsi” olduğunu əsas gətirir. Yaxşı, hər iki suala artıq cavab verilib - Qarabağ Azərbaycandır və ona uyğun olaraq Azərbaycanın tərkibindən başqa status ola bilməz. Heç vaxt ikinci erməni dövləti olmayıb və olmayacaq. Vladimir Putin beynəlxalq hüquq baxımından Qarabağın Azərbaycan olmasını bəyan edib. Qarabağ ermənilərinin hüquqlarına gəlincə, Əliyev bildirib ki, o, Qarabağ ermənilərinə Azərbaycanın qalan vətəndaşları kimi hüquqları verməyə hazırdır.

Yəni gördüyümüz yenə də İrəvanın bəzi ziddiyyətli bəyanatlarıdır. Bunun mənası nədi? Həmin Ermənistan yenə də Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər vasitə ilə ləngitməyə çalışır. İrəvan qoşunların çıxarılmasının zəruriliyindən danışır, delimitasiya ilə məşğul olaq, bitib-tükənməyən mübahisələrdən yox.

Azərbaycanın mövqeyi belədir ki, Ermənistanı mütəmadi olaraq sülhə, sülhsevər addımlara sövq edir. Sözün əsl mənasında, ötən gün Azərbaycan rəsmiləri bir daha qeyd etdilər ki, Bakı Ermənistanla mehriban qonşuluq münasibətlərinə hazırdır, bu, vacibdir, lakin Ermənistan məsələyə konstruktiv münasibət göstərməlidir.

Görüşün Avropa İttifaqının təşəbbüsü ilə keçirilməsinə gəlincə. Aİ yenə də Cənubi Qafqazda nəsə etdiyini göstərməyə çalışır, Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması üçün bütün səylərini əsirgəməyən Rusiyanın ayağına basmağa çalışır. Rusiya elə bir yol açıb ki, tərəflər üçtərəfli bəyanatın bəndlərini ardıcıl şəkildə yerinə yetirərək rasional hərəkət etsələr, sülh müqaviləsinin imzalanmasına nail olmaq olar.

Təbii ki, Rusiyanın Ukraynada keçirdiyi xüsusi əməliyyat fonunda Aİ digər məsələlərlə yanaşı, kənardan bu görüşün qəbulunu daha da gücləndirməyə çalışır. Baxın, Azərbaycan və Ermənistan qərb platformasında görüşür. Amma fərq etməməlidir. Başa düşmək lazımdır ki, Avropa İttifaqı ilk növbədə belə bir görüşlə öz məqsədlərinə çatmağa çalışır. Və Ermənistan da. Azərbaycan danışıqlara gedir, amma başa düşür ki, heç nə alınmayacaq. Erməni tərəfi bunun Qərb vasitəsilə öz mövqelərini irəlilətməyə çalışmaq fürsəti olduğunu anlayaraq danışıqlara gedir. Avropa İttifaqı isə, təcrübədən göründüyü kimi, Azərbaycanın Avropa üçün qaz təchizatçısı kimi əhəmiyyətinə baxmayaraq, daha çox Ermənistanın tərəfində oynayır.

Bu yaxınlarda Avropa Parlamentinin işğaldan azad edilmiş ərazilərdə ”erməni mədəni-dini irsinin” bəzi obyektlərinin dağıdılması, yəni Bakının nəzarətinə qaytarılması ilə bağlı Azərbaycana qarşı ittihamları özündə əks etdirən anti-Azərbaycan qətnaməsinin qəbul edilməsini götürək. Bu, absurddur. Mən şəxsən Qarabağda olmuşam və qədim Azərbaycan abidələrinin işğalı zamanı erməni tərəfinin dağıdılmasının nəticələrini görmüşəm. Ola bilsin ki, erməni tərəfi özünün ”qədimliyini” və ərazidə mövcudluğunu sübut etməyə çalışır. Erməni tərəfinin özününkü adlandırdığı məbədlər isə əslində işğal dövründə erməni məbədlərinə oxşadılaraq dəyişdirilmiş Alban-Udi məbədləri olub. Ona görə də Avropa Parlamentinin Azərbaycanı ittiham etməsi tamamilə axmaq bir ittihamdır.

Xatırladığımız kimi, davamlı olaraq anti-Azərbaycan qətnamələri qəbul edilir. Amma anti-erməni qətnamələri çox azdır. Baxmayaraq ki, işğalçı Ermənistandır.

Azərbaycan başa düşür ki, bu halda Aİ-nin mövqeyi şübhəlidir, lakin o, danışıqlara gedir, çünki ona hələ də diplomatik etiketə riayət etmək lazımdır. Əgər Aİ platforma təklif edirsə, o zaman imtina etməməlisiniz. Amma eyni zamanda İlham Əliyev də yaxşı bilir ki, Ermənistanla sülhün bağlanması yalnız Rusiyanın vasitəçiliyi ilə mümkündür. Biz xatırlayırıq ki, Rusiya, Azərbaycan və Ermənistan liderləri Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı Moskvaya iddialar təqdim edilən üçtərəfli bəyanatı imzaladıqdan sonra Qərb dövlətləri necə əsəbi idilər.

Son həftələrdə gördüklərimiz (lakin bu, əvvəllər də olub): Ermənistan mütəmadi olaraq bütün qondarma ”sivil dünya”ya şikayət edir ki, guya Azərbaycan Qarabağ ermənilərinin hüquqlarını ”pozur”, ”etnik təmizləmə” aparır, lakin eyni zamanda heç bir sübut təqdim edə bilmir. Ermənistan yenə də Azərbaycanı gözdən salmağa çalışır. Ermənistan sülh sazişi üzrə danışıqların ATƏT-in Minsk qrupundan keçməsində israr edir. Amma bu Minsk Qrupunun Qarabağ nizamlanması ilə nə qədər məşğul olduğunu və məsələni həll etmədiyini xatırlayırıq. Münaqişə Rusiyanın milli vasitəçiliyi ilə üç lider formatında həll olunub. İndi Rusiyanın düşdüyü vəziyyəti nəzərə alsaq, İrəvanın yerində olsaydım, Avropa İttifaqı ilə dostluqda və ona müraciətlərdə daha diqqətli olardım.

Yeri gəlmişkən, Ermənistanın son zamanlar sülhməramlıların hərəkətlərinə qarşı əsassız iddialar irəli sürməsinə diqqət yetirmək yerinə düşər. Ermənistanın özü isə nəinki üçtərəfli bəyanata, o cümlədən qanunsuz birləşmələrinin Qarabağdan çıxarılmasına dair bəndə əməl etmir, həm də sülhməramlıların arxasından Azərbaycan mövqelərini atəşə tutmağa çalışır. Düşünürəm ki, Moskva və Bakı bu vəziyyətin yekun tənzimlənməsi və Ermənistan tərəfinin Qarabağdan qanunsuz silahlı birləşmələrin çıxarılması ilə bağlı öhdəliklərini yerinə yetirməsi üçün imkanlar tapacaq.

Şübhə etmirəm ki, Rusiya tərəfi Qarabağdakı prosesdən xəbərdardır və fürsət düşən kimi müəyyən qərarlar verəcək. Üstəlik, Putin bu yaxınlarda Əliyevlə Paşinyana zəng edib. Avropa İttifaqı isə ancaq gözə kül üfrür.

**Politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov:**



-Təbii ki, Azərbaycan və Ermənistan danışıqlar üçün bütün imkanlardan, xüsusən, birinci şəxslərin iştirak etdiyi danışıqlardan istifadə etməlidir. Onlardan imtina etməyə dəyməz. Aydındır ki, həm Azərbaycan, həm də Ermənistan Avropa ilə mübahisə etmək istəmir. Və beləliklə təklifə tərəf gedirlər. Amma Brüsseldə konkret nəticə gözləmək lazım deyil, heç bir irəliləyiş olmayacaq. Baxmayaraq ki, təbii ki, Avropa mətbuatının bu barədə əsrin hadisəsi kimi yazacağına şübhəm yoxdur.

İndi çoxları yenidən niyə danışıqların Rusiyanın deyil, Aİ-nin vasitəçiliyi ilə getdiyinə diqqət yetirir, çünki Moskva Qarabağ nizamlanmasında əsas vasitəçiyə çevrilib. Düşünmürəm ki, müzakirə ediləcək bir şey olsaydı, Vladimir Putin Moskvada belə bir görüşü təşkil etməyə vaxt tapmazdı. Və Rusiyanın Ukraynada məşğulluğuna istinad etməyə dəyməz. Problem ondadır ki, Azərbaycan və Ermənistanın mövqeləri hələ də üst-üstə düşmür və hələ müzakirə olunacaq şeylər var. İndi danışıqlarda konkret məqamlar açıqlansaydı, əminəm ki, danışıqlar avropalı siyasətçilərin vasitəçiliyi ilə deyil, Vladimir Putinin vasitəçiliyi ilə aparılardı.

Brüsseldə keçiriləcək görüş, ilk növbədə, Rusiyanın təsir zonasında öz mövqelərini gücləndirmək baxımından Qərbə lazımdır- Aİ Cənubi Qafqazda Moskvanın artıq heç nəyə təsir göstərmədiyini göstərmək istəyir. Amma bu, yumşaq desək, belə deyil. Qərb burada da Rusiyanı küncə sıxışdırmaq istəyir. Hər şeyin, bütün məsələlərin Avropada həll olunduğunu göstərmək üçün çalışır. Amma bu, işləməyəcək. 2020-ci ilin payızında Moskva Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli bəyanatın imzalanmasına nail olanda avropalı siyasətçilərin necə səs-küylü bəyanatlar səsləndirdiyini xatırlayırıq.

Biz xatırlayırıq ki, ötən ilin sonunda Əliyevlə Paşinyan arasında ilk görüşdə Şarl Mişelin vasitəçiliyi ilə Putin, Əliyev və Paşinyanın razılaşdığı məqamlar yenidən təsdiqlənib. Bundan sonra bildirilib ki, Aİ-nin vasitəçiliyi ilə delimitasiya prosesinə, sülh müqaviləsinin imzalanmasına başlamaq olar. Amma bunların heç biri baş vermədi.

Eyni zamanda, Aİ-nin vasitəçiliyi ilə danışıqlar indi Ermənistan üçün faydalıdır. Çünki bu, həm üçtərəfli bəyanatların həyata keçirilməsi prosesini ləngitmək, həm də Qərblə burgə hoqqabazlıq etmək demək olacaq. Axı Qərb ölkələrində kifayət qədər güclü erməni lobbisi fəaliyyət göstərir. ABŞ və Fransa Qarabağın statusunun həllinin vacibliyi məsələsini irəli sürdülər. Belə çıxır ki, onlar Ermənistanla yanaşı oynayırlar. Onların məqsədi Ermənistanı Rusiyanın orbitindən çıxarmaqdır. O cümlədən absurd məsələlərdə İrəvanla bərabər oynamaqla xal qazanmağa çalışırlar.

Əliyevin danışıqlarda iştirakına gəlincə, Putinlə Əliyev arasında münasibətlərin tamamilə səmimi olduğu göz qabağındadır. Əgər bu gün kimsə bunun belə olmadığını göstərməyə çalışırsa, bu, doğru deyil. Putin və Əliyev həmişə bir-birini başa düşəcəklər.

Əminəm ki, Rusiya Ermənistanı yumşaq şəkildə üçtərəfli danışıqların həyata keçirilməsinə yönəltməyə davam edəcək. Top indi İrəvanın tərəfindədir. İrəvan üçtərəfli bəyanatların yerinə yetirilməsi prosesini süründürür. Biz bu işi irəli aparmalıyıq. Çünki delimitasiya olmadan sərhədlərdə sülh olmayacaq. Rusiyaya Cənubi Qafqazda sülh, nəqliyyat layihələrinin inkişafı lazımdır. Paşinyan Rusiya Federasiyası ilə Qərb arasında oynayır və hamının xoşuna gəlmək istəyir. Amma Paşinyan Moskvanı çaşdırsa, o, çox qısa müddətə baş nazir olaraq qalacaq.

Yeri gəlmişkən, Əliyev və Paşinyan təcrübə və hazırlıq baxımından tamamilə fərqli miqyaslı siyasətçilərdir. Paşinyan Əliyevlə müqayisədə vaxtaşırı özünü ədəbsiz aparan məktəblidir. Ermənistan rəhbərliyi hələ də öz qonşularından, siyasətdən və mehriban qonşuluqdan, müdriklikdən öyrənməlidir. Özünüzkü kifayət deyilsə, başqasınınkini götürməlisiniz.

Son həftələr Azərbaycan daima Ermənistanla mehriban qonşuluq münasibətlərinin vacibliyindən, sülh müqaviləsinin imzalanmasının vacibliyindən danışır, eyni zamanda irəli getməli olduğumuzu, üçtərəfli sazişləri həyata keçirməli olduğumuzu, o cümlədən Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxarılmasının başa çatdırılmasının zəruriliyi deyir. Düşünürəm ki, Qarabağda erməni əhalisi arasında demilitarizasiya aparmaq- mövcud silahları götürmək məqsədəuyğun olardı, əks halda onlar təhlükə yaradır.

İndi Ermənistan, yeri gəlmişkən, görünür, dünyada baş verən tarixi siyasi dalğadan istifadə etmək qərarına gəlib və kifayət qədər qəribə bəyanatlar verməyə başlayıb ki, Azərbaycanın məqsədi Qarabağın erməni əhalisinin ”soyqırımı”dır. Düzünü desəm, bu, absurddur. Ermənistan işğalçı olmasına baxmayaraq, həmişə özünü ”alçaldılmış və təhqir olunmuş” qurban kimi təqdim edib. Bu, hamı tərəfindən bilinməlidir.

***Tərcümə - Elçin Bayramlı***

**Rusiya və Ukrayna arasında olan qarşıdurma, müharibə bütün dünyanın diqqət mərkəzindədir və bu heç də təsadüfi deyil. Bunun da səbəbləri müxtəlifdir. Əvvəla, sözügedən müharibə çoxlu sayda insan tələfatına, yaşayış məntəqələrinin dağılmasına, şəhərlərin viran qalmasına, sağ qalan insanların sığınacaqlarda yaşamasına, məskunlaşmasına, bir sözlə çox çətin vəziyyətə, duruma səbəb olub. Digər tərəfdən də bütün dünya ictimaiyyəti, dünya dövlətlərinin qarışacağı təqdirdə üçüncü dünya müharibəsinin başlanması təhlükəsindən ehtiyatlanır. Bununla yanaşı, hər kəsi maraqlandıran yeni dünya düzəninin hanşı şəkildə formalaşacağıdır ki, bu da artıq get-gedə bəlli olur.**



# Formalaşmaqda olan yeni dünya düzəni

Əlbəttə ki, ilk gündən Rusiya, xüsusilə Vladimir Putin bu müharibədə tez bir zamanda böyük üstünlük qazanacağı qənaətində olsa da, bunun yanlış olduğu ortaya çıxdı və Rusiya tərəfi Ukraynanın güclü müqaviməti ilə qarşılaşmalı oldu. Bununla yanaşı Rusiyanın hələ də öz niyyətindən əl çəkmədiyi göz önündədir və müharibənin davam etməsi də bu səbəbdəndir. Əks halda ciddi sanksiyalarla qarşılaşan Rusiya qarşı tərəfin müqavimətini gördükdən sonra vəziyyətlə barışa bilərdi. Rusiya isə hələ də inad edir, sanksiyalara və bütün dünyanın qınağına məhəl qoymadan qarşıdurmanı davam etdirir. Belə olan halda Qərb öz nəticələrini çıxarmaq məcburiyyətindədir və dərk olunur ki, Rusiya nəyə isə güvənir, hansısa imkanlarına əmindir və deməli, müharibəni davam etdirməyə hələ gücü var. Belə bir güclə hesablaşmalı olan başda ABŞ, ardınca da Avropa ölkələri bu vəziyyətdə Rusiyanın çoxlu sayda qurbanlar verməsində, Rusiyanın nüfuzuna ciddi zərər dəyməsində maraqlı ola bilərlər və görünür elə maraqlıdırlar da. Belə olmasaydı Rusiya ilə tamamilə başqa dillə danışılar, yanan ocağın üstünə yanacaq deyil, su tökülərdi ki, sonsün, daha da alovlanmasın. Əgər belə edilmirsə, deməli məqsəd aydındır və Rusiyanın gücü də, inadı da öz əleyhinə yönəldilir. Elə edilir ki, Rusiya lideri öz inadkarlığı ilə rəhbərlik etdiyi dövləti tamamilə nüfuzdan salsın və nəticədə yeni dünya düzənində, gücü olsa belə nüfuzdan düşmüş bir Rusiya qalmış olsun.

Ukraynanın öz suverenliyini, müstəqilliyini qoruması, bunun üçün mücadilə etməsi başadüşülən, eləcə də təqdirəlayiqdir və bu məqsədlə aparılan, sonsuza qədər davam edən mübarizə yalnız alqışlana bilər. Lakin bu mübarizə də, ali niyyət Qərb üçün həmişə olduğu kimi, yenə də maraq dairəsində deyil və məqsəd tamamilə başqadır. Qərb üçün demokratiyanın da, ali dəyərlərin də hər zaman bəhanə olduğu bu dəfə də öz təsdiqini tapdı. Əvvəlcə Ukraynaya dəstək olacağını bəyan edən və bu ölkəni müharibəyə sürükləyən ölkələrin qarşıdurma yaranan andan etibarən müşahidəçi mövqedə olduqları heç kim üçün sirr deyil və elə məsələnin mahiyyəti də bununla bəlli olur. Bəlli olur ki, məqsəd Ukraynanın suverenliyi, haqq-ədalətin təmin edilməsi deyil və heç vaxt belə bir məqsəd olmayıb da. Elə isə məqsəd nə idi və buna nail olundumu? Ümumiyyətlə, dünyanın hal-hazırki durumu, ümumi vəziyyət, geosiyasi mənzərə necədir və nədən xəbər verir?

Yaranan suallar həddindən artıq çoxdur və maraq doğuran məqamlar da saysız-hesabsızdır. Hər kəsi düşündürür ki, Rusiyanın prezidentinin, onun sözçüsünün, xarici işlər nazirinin və digər mötəbər şəxslərin müharibənin olacağı barədə bu qədər təkziblərinin ardınca Rusiya niyə müharibəyə başladı? Yaxud, niyə müharibə planlanıldığı təqdirdə ölkənin ən mötəbər adamlarından belə təkziblər gəlirdi? Bəs görəsən, Putin bu müharibəni başlatmaqla nə əldə etdi? Ümumiyyətlə, Rusiya nə isə qazana bildimi? Məsələ burasındadır ki, hadisələrin gedişi tamamilə başqa fikirlər söyləməyə əsas verir. Xüsusi olaraq, Rusiya kimi bir dövlətin daxilində böhranlı vəziyyətin yaranması diqqəti cəlb edir. Bu ölkənin iqtisadiyyatının nə qədər zəiflədiyi günün reallığıdır. Həmin ölkənin vətəndaşlarının vəziyyətinin də gündən-günə pisləşdiyi göz önündədir. Hətta oliqarxlar belə əhəmiyyətli dərəcə zərərlə, ziyanla qarşılaşıblar və heç də vəziyyətdən razı deyillər, buna da qarşıdırlar. Məhdudiyyətlər də ki, ruslara göz açmağa imkan vermir. Görəsən bu halda Putinin özünün vəziyyəti yaxşı ola bilərmi? Moskvada insanların narazılıqlarını ifadə etdikləri aksiyaları Putin istəyərdimi? Belə olan halda, Putinin bu müharibəni başlaması, sanksiyalarla qarşılaşdığı təqdirdə, zərərlə üzləşdiyi halda dayanmaması nə anlamı daşıyır? Bunun arxasında nə dayanır, siyasi texnoloqlar nələri planlaşdırıblar və nələr gözlənilə bilər?

Bir çoxları belə güman edirlər ki, Rusiya Çinə güvənir və bu ölkədən həm yardım umur, həm də gücünə, onunla münasibətlərinə arxalanır. Axı bütün dünya bütövlükdə Çinin inkişafını həzm edə bilmir, birmənalı olaraq özünə rəqib hesab edir və bunu da Çin tərəfi çox yaxşı bilir. Ola bilsin ki, politoloqlar bu məqama istinadən belə bir qənaətdədirlər, amma görünür yanılırlarmış. Əvvəla, müharibənin başladığı andan çox sayda gün keçib və Çin buna qarışmayıb, hansıki qarışsaydı bu mülahizənin doğru olduğu barədə barı düşünməyə dəyərdi. Məsələ burasındadır ki, Çinin özünə məxsus qayğıları kifayət qədərdir və Rusiyanın bu məqamda yada düşəcəyi inandırıcı deyil. Çinin öz suverenliyini bütün ərazisində təmin etməsi məsələsi var və ümid edilir ki, bəzi məsələlər Honq-Konq senarisinə uyğun olaraq həll ediləcək. Belə bir məqamda Rusiyanın mövqeyini müdafiə etmək çətin ki, Çin üçün hansısa mənada maraq kəsb edə bilər.

Artıq ortaya çıxır ki, Avropa İttifaqını və Qərbi Avropanı çətinliklər gözləyir və onlar qarşıda ciddi iqtisadi çətinliklərlə üz-üzədirlər, hansıki buna dözmək məcburiyyətindədirlər. Avropa İttifaqı geosiyasi məğlubiyyətlə üz-üzədir və görünür Makron da elə Avropa qüvvələrinin yaradılması ilə bağlı fikirləri əbəs yerə ortaya atmamışdı, hərçənd bunun da artıq bir dəyəri qalmayıb. Get-gedə kiçilməkdə olan Qərbi Avropa tez bir zamanda Amerikanın nəzarətinə keçir. Əslində, ABŞ öncədən bu mənada da maraqlı olub və göründüyü kimi istəyinə çatmaqdadır. Hər zaman Avropanı idarə etməyə çalışan ABŞ tezliklə buna nail olacaq. Məqsəd də dünyada hegemonluğunu təsdiq etmək, ən azından Qərb dünyasına başçılıq etməkdir. İstər Rusiyanın nüfuzdan salınması, istərsə də Avropanın siyasi cırtdana çevrilməsi, ümumiyyətlə, hadisələrin gedişi təsdiq edir ki, dünya artıq dəyişir və tamamilə başqa mənzərə, düzən ortaya çıxır.

***İnam Hacıyev***

# “HRAPARAK”: “Qarabağ erməniləri mühacirət etmək üçün qəti qərara gəliblər”

***Ermənistanda dərc edilən ”Hraparak” qəzetinin yazdığına görə, Qarabağdakı situasiya get-gedə daha çətin və gözlənilməz vəziyyətdədir. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, ermənilər Rusiya sülhməramlıları Azərbaycan Silahlı Qüvvələrinin tutduğu mövqelərdən əvvəlki mövqelərinə doğru kənarlaşdıra bilməyiblər və sonuncular (yəni Azərbaycdan SQ-i-R.R.) tədricən irəliləməklə yeni mövqelərə sahib olurlar.***



Lakin sözügedən xəbərin daha bir diqqət çəkən məqamı budur ki, hələ də nəyəsə ümid edən və 30 il əvvəl zəbt etdikləri azərbaycanlıların evlərində yaşayan, Azərbaycanın yuridiksiyası altında keçmək istəməyən Qarabağ ermənilərinin son ümidləri də tükənməkdədir. SİTAT: ”Başqa tərəfdən, Qarabağdakı ermənilərin çıxılmaz vəziyyətdə olmaları və ümidsizlikləri daha da güclənir - onlar anlayırlar ki, Ermənistandakı hakimiyyət əllərini onlardan üzüb və Qarabağı taleyin hökmünə buraxıb”.

”Hraparak” diqqəti Ermənistanın baş naziri Nikol Paşinyanın keçirdiyi son hökumət iclasına da yönəldib. ”Nikol Paşinyanın hökumətin son iclasındakı bəyanatından sonra Qarabağdakı ermənilər birdəfəlik əmin oldular ki, Ermənistan daha onların təhlükəsizlik qarantı kimi çıxış etmir”, yazan erməni nəşri artıq ermənilərin bütün ümidlərinin tamamilə tükəndiyini bildirir, eyni zamanda qeyd edir ki, artıq onların çoxu yaşadıqları əraziləri tərk edərək mühacirət etmək barəsində qəti qərarlar verməyə başlayıblar.

***Rövşən RƏSULOV***



# Milli Olimpiya Hərəkatı-30

**Ölkəmizdə olimpiya hərəkatının başlanılmasına və onun fəaliyyətinə bu günün prizmasından nəzər saldıqda gözlərimiz önündə bir qərinəyədək dövrün uğur və nailiyyətlərlə dolu mənzərəsi açılır. Bəlkə də 30 ilin əvvəlində idmanın inkişafı ilə bu nöqtəyə gəlib çıxmağın mümkünlüyü heç ağıla da gəlməzdi. Çünki həmin dövr o dövr idi ki, ölkə iqtisadi cəhətdən tənəzzülə uğramışdı. Sovet imperiyasının buxovlarından yenicə azad olan xalq olmazın çətinlikləri ilə üz-üzə qalmışdı.**

Bu, həyat tərzi olaraq gənclərimizdən də təsirsiz keçmirdi. Milli Ordumuzun yenicə təkmilləşdiyi o illərdə gənc oğlanlar 4-5 il əsgəri xidmət keçir, qayıdanlar işləmək üçün iş yerləri tapmırdılar. Gənc qızların da sosial həyatı çox passiv şəkildə idi, onların asudə vaxtlarının səmərəli təşkili üçün əsaslı bir ünvan yox idi. Belə bir dövrdə gənclərin üzünə onların maraqlarını təmin edə biləcək qapıların açılması təbii ki, 30 ilin sonunda bu uğurların sadalanması ilə nəticələnəcəkdi. Bu qapı idmanın inkişafı, ölkəmizdə Olimpiya Hərəkatının başlanması idi. Bu, həm də ölkənin gələcək inkişafına istiqamətlənmiş siyasətin prioritetlərindən biri idi. Ölkəmizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini aparарkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".

## Bədənin düzgün tərbiyəsi sağlam nəsil yetişdirir

Bədən tərbiyəsi, yəni bədənin tərbiyəsi hər dövr üçün ən aktual məsələdir. Yəni hər bir insan bədənini müəyyən istiqamətdə tərbiyə etməyi bacarırsa, zamanla onun faydalarını da görməyə başlayır. Bədənin tərbiyəsi öncə hər bir ailədə valideynlərin üzərinə



düşən vəzifədir. Hər bir ata-ana övladının kiçik yaşlarından bədəninin tərbiyəsinin əsasını qoymalı, müxtəlif rejimlər tətbiq etməklə bunu onun vərdişinə çevirməli və sağlam həyat tərzinin təməlini qoymalıdır. Bəzən bədən tərbiyəsi dedikdə çox insanlar tək idmanı nəzərdə tutur. Lakin bu, belə deyil. İnsanın gün ərzində səhər saatlarından gün bitənədək fəaliyyəti onun bədəninin tərbiyəsini xarakterizə edir. Bura səhər gəzintiləri də, yemək, istirahət saatları da, kitab oxumaq, dərs çalışmaq, hansısa bir işi görmək də, yaxud əksinə sağlam həyat tərzinə zidd olanların hər biri daxildir. Beləliklə, lap kiçik yaşlarından bədənin tərbiyəsinə necə başlanarsa, sonrakı illərdə də həyatımız əsasən o qayda ilə davam etdirilir.

Sağlam həyatın, mənalı ömrün, cəmiyyətə layiqli olmağın, ən əsası isə vətənsevərliyin, vətənpərvərliyin əsası bədənin tərbiyəyə necə alışdırılmasından birbaşa asılıdır. Düzgün bədən tərbiyəsi sayəsində şüurun, beynin sürətli inkişafı, hadisələrə baxış bucağının düzgün qurulması, cəmiyyətə sağlam şəkildə yanaşması ilə insan, sözün həqiqi mənasında, mənsub olduğu ölkə üçün uğurdur. Bunun üçün də bədən tərbiyəsinin inkişafı dövlətimiz tərəfindən diqqətdə saxlanılan prioritet məsələlərdəndir.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də ölkəmizdə bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən tədbirlər artıq öz bəhrəsini verməkdədir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə cəmiyyət üçün faydalıdır".

## Sağlam nəsil - güclü idman

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Prezident cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə deyirdi: "Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm.

Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir".

Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Olimpiya və dünya çempionatlarında qazanılan medalların, nailiyyətlərin sayı ildən-ilə artır. İdmançılarımız 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında uğurla çıxış edərək 7 medal qazanıb və Azərbaycan dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutub.



Prezident İlham Əliyevin Sərəncamı ilə "İdman İli" elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün uğurlu il olub. Komandamız Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında daha yaxşı nəticə əldə edib. London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan əvvəlki olimpiadalardakı rekordunu yeniləyib. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan milli komandası medal sayına görə 14-cü yerdə qərarlaşdı. İdmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar.



İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prilərinin, 2021-ci ildə futbol üzrə Avropa çempionatının müəyyən mərhələlərinin yüksək səviyyədə təşkil olunması ilə nəticələndi.

## Bədən tərbiyəsi və idman vətənpərvərlik hissinin təməlidir

"İdman təkcə fiziki sağlamlıq deyil, bu, həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir",- deyən Prezident İlham Əliyevin bu dəyərli fikirlərinə istinadən demək olar ki, bəli, idman sağlamlıqla yanaşı, həm də özünəinamı, eyni zamanda qorxmazlığı, əyilməzliyi, igidliyi özündə ehtiva edir ki, bütün bunlar isə insanda vətənpərvərlik hissinin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə gənc nəsil bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olduğundan, bu, son illər vətənpərvər gəncliyin də yetişməsində mühüm rol oynamışdır. Sağlam həyat tərzi, düzgün yaşam, cəmiyyət üçün gərəkli fərd olmaq insanda Vətəninə, torpağına, el-obasına sevgi, qədrbilənlik hissini formalaşdıran amillərdir. Bugünkü gəncliyin yüksək vətənpərvərlik keyfiyyətinə malik olmasında bu sahəyə göstərilən diqqət və qayğı öz sözünü deyib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində gənclərimizin dünyaya nümunə olan vətənpərvərliyi dövlətimizin vətəndaşına göstərdiyi qayğının bəhrəsi kimi təzahür etdi. Statistikaya görə, Vətən müharibəsində idman sahəsi üzrə 500 nəfər iştirak edib. Onlardan 54 nəfəri şəhidlik zirvəsinə yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə 390 nəfər könüllü kimi qatılıb. Hərbi xidmətə çağırılanlar 33, hərbçi kimi iştirak edənlər isə 23 nəfər olub. Müharibə iştirakçılarından 67 nəfər yaralanıb.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşmələri, torpaq, Vətən uğrunda şəhid olmaları göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular. Fevral ayında gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: "Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən".

Dövlətimizin başçısı onu da vurğulayır ki, bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir.

Uşaqların, yeniyetmələrin, idmanla məşğul olmaq istəyənlərin də onlara oxşamasını vurğulayan ölkəmizin rəhbəri qeyd edir ki, onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa, öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

Bəli, Olimpiya Hərəkatının uğurları ölkəmizə 18 ildə yüksək səviyyədə rəhbərlik edən dövlət başçısının, eləcə də Olimpiya Hərəkatının rəhbərinin uğurları, yüksək idarəetmə təfəkkürü ilə gələcəyə hesablanmış siyasətin nəticəsi, nəyi nə vaxt etməyin əyani göstəricisidir. Elə Azərbaycanın bugünkü inkişafı da, 2020-ci ildə 30 illik mücadilənin sonu olaraq 44 gündə Qarabağın işğaldan azad olunması da, bu gün ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması da dövlətimizin başçısının nəyi nə vaxt edəcəyini düzgün müəyyənləşdirməsinin bariz göstəriciləridir.

***Mətanət MƏMMƏDOVA***

# Aprel döyüşləri - Böyük zəfərə aparan yol" mövzusunda konfrans keçirilib

**Aprelin 5-də Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatında "Aprel döyüşləri - Böyük zəfərə aparan yol" mövzusunda konfrans keçirilib.**

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının və Xətai rayon təşkilatının birgə təşəbbüsü ilə keçirilən konfransda əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.





Konfransın moderatoru, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünün, xalqla ordunun birliyinin, gənclərimizin vətənpərvərliyinin göstəricisi kimi tarixə düşdü. Onun sözlərinə görə, bu döyüşlərin gedişində Lələtəpə kimi yüksəklik geri alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. V.Rəhimzadə qeyd edib ki, bu gün xalqımız tarixi Zəfərimizin sevincini yaşamaqla yanaşı, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışa hazırlıq görür. Cocuq Mərcanlı bu qayıdışın başlanğıcı idi. Dövlətimizin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın dəmir yumruq kimi birliyi, həmrəyliyi sayəsində bu qayıdış əbədidir.







Tədbirdə çıxış edən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, aprelin 2-dən 5-dək davam edən bu döyüşlər Azərbaycan hərb tarixində mühüm yer tutur. Aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda Ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Aprel döyüşlərində də Prezident, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan xalqının bir yumruq kimi birləşdiyini xatırladan polkovnik deyib: "Bu hadisələr göstərdi ki, Azərbaycan xalqı Qarabağın işğaldan azad edilməsi məsələsində hamılıqla birləşə bilir. Bu birlik sonradan Vətən müharibəsində düşmənin başını əzən "Dəmir yumruğ"a çevrildi".

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov çıxışında bildirib ki, Aprel döyüşləri böyük zəfərimizin başlanğıcı idi. Onun sözlərinə görə, həmin günlər xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşərək öz əzmini nümayiş etdirdi: "Döyüşlərdə işğalçı Ermənistan ağır zərbələr aldı, işğal altında olan torpaqlarımızın bir hissəsi azad edildi. Məğlub olduğunu görən Ermənistanın o zamankı rəhbərliyi döyüşlərin dayandırılması üçün başqa ölkələrə yalvarırdı. Lakin düşmən nə Aprel döyüşlərindən, nə Günnüt əməliyyatından, nə də Tovuz hadisələrindən nəticə çıxarmadı. Ona görə də, 44 günlük Vətən müharibəsində işğalçılar torpaqlarımızdan qovuldu və ordumuz şanlı zəfər tarixi yazdı".

Çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri, Qarabağ qazisi Anar Məmmədov Ermənistanın heç vaxt sülhə gəlmək niyyətində olmadığını, işğalçı siyasətini davam etdirmək istədiyini xatırladıb. Onun sözlərinə görə, Azərbaycan Ordusu işğalçıya öz gücünü göstərdi: "Aprel döyüşlərində və 44 günlük Vətən müharibəsində erməni ordusu haqqında mif tamamilə dağıldı. Bütün dünya xalqımızın gücünü gördü. Dövlətimiz həm masada, həm də döyüş meydanında qalib gəldi. Bu gün dünya bizim döyüş təcrübəmizi öyrənir. Biz qalib ölkənin vətəndaşı olmaqdan qürur duyuruq".

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elməddin Quliyev illər ötdükcə Aprel zəfərinin möhtəşəmliyinin daha aydın göründüyünü söyləyib. Onun sözlərinə görə, həmin döyüşlər bir daha təsdiqlədi ki, erməni işğalı uzun müddət davam edə bilməz və Qarabağ "dondurulmuş" münaqişə deyil: "Şanlı aprel döyüşlərindən nəticə çıxarmayan Ermənistanın kriminal rəhbərliyi yenidən hərbi təxribatlara əl atdı. 2020-ci ilin 27 sentyabr tarixi onların "arzularının" tükənən günü oldu. Azərbaycan xalqı Prezidentimizin ətrafında sıx birləşməklə bütün dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidir və Azərbaycan xalqı 30 ildə bir an da olsun Qarabağ arzusundan bir addım belə geri çəkilməyib. 30 ilin nisgilinə, acısına, torpaq həsrətinə son qoyan 44 günlük Vətən müharibəsi Azərbaycanın zəfəri ilə dünyaya səs saldı".

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında Azərbaycan gənclərinin vətənpərvərlik ruhunun yüksək olduğunu bildirib. Onun sözlərinə görə, həm Aprel döyüşləri, həm də 44 günlük Vətən müharibəsi bu faktı təsdiqləyir. Prezident İlham Əliyevin Azərbaycan gənclərinin torpaqlarımızın işğaldan azad edilməsində rolunu yüksək qiymətləndirdiyini deyən B. İslamov diqqətə çatdırıb ki, müharibədən sonra yaranmış yeni reallıqlar da gənclərin qarşısında yeni vəzifələr müəyyənləşdirib. Bu da, müstəqil dövlətimizi qorumaq, onu daha da gücləndirmək və əsl həqiqətləri, uğurlarımızı dünyada təbliğ etməkdən ibarətdir.

Konfransda daha sonra şəhid Rəşad Niftalılının atası Şakir Niftalıyev, şəhid Kəmaləddin Məmmədzadənin bacısı Ülkər Məmmədzadə, Aprel döyüşlərinin iştirakçısı, mayor Amil Cəlilov, Vətən müharibəsi qazisi Famil Məlikov və qazi, ərazi partiya təşkilatının sədri Tariyel Şıxbalayev çıxış edərək aprel döyüşlərindən, 44 günlük Vətən müharibəsindən, qazi və şəhid ailələrinə dövlət qayğısından bəhs ediblər.

# "Bu döyüşləri Azərbaycan xalqı unutmur, unutmayacaq"



"Aprel döyüşləri 2020-ci il sentyabrın 27-də baş verən 44 günlük Zəfərimizin müjdəçisidir". Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov bildirib. Onun sözlərinə görə, ordumuzun nəyə qadir olduğunu o zaman düşmənə göstərmişik: "Bizim gücümüzü anlamaq istəməyən düşmən və onun havadarları bu Zəfərlə bizim yenilməz olduğumuzu gördü. Azərbaycan ordusu düşməni məhv etdi və torpaqlarımızı işğaldan azad etdi. 2016-cı ildə baş vermiş Aprel döyüşlərinin hələ tam öyrənilmədiyini deyə bilərəm. Hələ də çox məsələlər incələnməyib. Həmin zamanlarda döyüşdə iştirak edən döyüşçülərimiz hələ də müharibə veteranı adını almayıblar. Çünki əsgərlərimiz orada qəhrəmancasına torpaqlarımızı müdafiə ediblər. Düşünürəm ki, təkcə 2020-ci ilin Vətən müharibəsinin iştirakçıları yox, həm də aprel döyüşlərində iştirak edən veteranlarımız da ordenlə təltif olunmalıdırlar. Aprel döyüşlərinin üzərindən 6 il keçsə də hələ bir sıra məqamlar öz həllini gözləyir.

Aprel döyüşlərinin tərbiyəvi əhəmiyyəti vardır. Aprel döyüşlərini Vətən müharibəsindən ayırmaq olmaz. 2016-cı ildə xeyli sayda qəhrəmanlarımız öz torpaqlarımı qorumaq üçün canından keçmiş, düşmənin dərinliklərinə qədər irəliləyib onları məbluğ etdilər. Horadizin, Naftalanın təhlükəsizliyi təmin olundu. Talış və Lələtəpə istiqamətlərində bir çox uğurlar əldə olundu. Bu uğurların davamı da 2020-ci ildə davam etdirildi. Bu döyüşləri Azərbaycan xalqı unutmur, unutmayacaq".

***Abutel İlhamqızı***

# Azərbaycan və Rusiya arasındakı münasibətlər hansı səviyyədədir?



"Azərbaycanla Rusiya arasındakı münasibətlər 30 il ərzində kifayət qədər inkişaf etmiş vəziyyətdədir. Bu gün Azərbaycan Rusiya ilə siyasi, iqtisadi, mədəni və bir çox sahələrdə iştirak edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov bildirib. Onun sözlərinə görə, həmçinin xeyli Azərbaycan vətəndaşı hal-hazırda Rusiyada çalışır: "Rusiya Azərbaycanla Ermənistan arasında 44 günlük Vətən müharibəsindən sonra qazandığımız qələbənin ardından 10 noyabr bəyanatının imzalanmasında xüsusi fəallıq göstərir. Rusiyanın vasitəçiliyi ilə Soçi bəyanatı imzalanıb və nəhayət ötən ilin sonlarına doğru Azərbaycanla Rusiya arasında Moskva bəyannaməsi imzalanıb bununla da Azərbaycanla Rusiya münasibətləri daha da üst bir nöqtəyə çatıb. Ümumilikdə hazırda Azərbaycanla Rusiya münasibətləri kifayət qədər yaxşı vəziyyətdədir. Bununla yanaşı eyni coğrafiyadakı ölkələr arasındakı ziddiyətlər daha da kulminasiya nöqtəsinə çatır. Bu baxımdan Qoşulmama Hərəkatının sədri və balanslı xarici siyasət kursunu həyata keçirən Azərbaycan Rusiya ilə də münasibətlərini bu prinsip üzərində qurur. Azərbaycan heç vaxt öz ərazisindən Rusiyaya qarşı hansısa fəaliyyətlərin həyata keçirilməsinə icazə verməyib. Həmçinin beynəlxalq təşkilatlarda Rusiyanın əleyhinə olan basqılarda və ona qarşı yönəlmiş siyasi hücumlarda Azərbaycan heç vaxt tərəf olmayıb və həmişə mehriban qonşuluq siyasətinə önəm verib".

***Banuçiçək Hüseynli***

# Tarixi uğurlarla zəngin dörd il: 2018-ci il 11 aprel

***Hər bir ölkənin daxili və xarici siyasətindəki uğur, məhz həmin ölkənin dövlət başçısının fəaliyyəti ilə bağlıdır. Bu gün Azərbaycan Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu milli inkişaf strategiyası nəticəsində möhtəşəm nailiyyətlər əldə edir. Bu uğurların qazanılmasının digər bir mühüm səbəbi isə Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasi kursun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. 11 aprel 2018-ci ildə cənab İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsi və ötən bu illər ərzində Azərbaycanda bütün sahələrdə inkişaf prosesləri baş verməsi bir daha sübut edir ki, ümummilli lider Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu milli inkişaf strategiyası nəticəsində möhtəşəm nailiyyətlər əldə edilir və bundan sonra da bu nailiyyətlər davamlı olacaq.***



## BU SEÇİM AZƏRBAYCANIN YÜKSƏLİŞİNƏ XİDMƏT EDƏN ÜMUMXALQ QƏRARI İDİ



***MUXTAR NAĞIYEV,***
***YAP Səbail rayon təşkilatının sədri***

Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son üç ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Seçkidə iştirak edən vətəndaşların 86 faizindən çoxunun öz səsini məhz İlham Əliyevə verməsi təsdiq etdi ki, Azərbaycan xalqı respublikamızın yüksəlişinə və qüdrətlənməsinə aparan siyasi xətti birmənalı dəstəkləyir. Bu qələbənin təməlində Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi 2003-cü ildən ötən on beş il ərzində gördüyü işlər, Azərbaycanın iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar, Heydər Əliyev yoluna olan inam dayandı. Bütün bunları rəhbər tutan seçicilərin mütləq əksəriyyəti seçimini məhz ötən dövrün sosial-iqtisadi uğurların nəticəsini göstərən səmərəli islahatların üzərində qurdu. Seçkilərin nəticəsi göstərdi ki, vətəndaşlar Prezident İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və çox böyük etimad bəsləyir. Bu etimad həm də perspektiv nailiyyətlərə hesablanan siyasi kursun yenilməzliyinə və alternativinin olmadığına olan inamın təcəssümü idi.

Bütövlükdə, bu seçim Azərbaycanın yüksəlişinə xidmət edən ümumxalq qərarı idi. 2018-ci il aprelin 11-də seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən cənab İlham Əliyev də xalqımızın bu seçkilərdə sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs verdiyini dedi: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son dörd ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Seçkidə iştirak edən vətəndaşların 86 faizindən çoxunun öz səsini məhz İlham Əliyevə verməsi təsdiq etdi ki, Azərbaycan xalqı respublikamızın yüksəlişinə və qüdrətlənməsinə aparan siyasi xətti birmənalı dəstəkləyir. Bu qələbənin təməlində Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi 2003-cü ildən ötən on beş il ərzində gördüyü işlər, Azərbaycanın iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar, Heydər Əliyev yoluna olan inam dayandı. Bütün bunları rəhbər tutan seçicilərin mütləq əksəriyyəti seçimini məhz ötən dövrün sosial-iqtisadi uğurların nəticəsini göstərən səmərəli islahatların üzərində qurdu. Seçkilərin nəticəsi göstərdi ki, vətəndaşlar Prezident İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və çox böyük etimad bəsləyir. Bu etimad həm də perspektiv nailiyyətlərə hesablanan siyasi kursun yenilməzliyinə və alternativinin olmadığına olan inamın təcəssümü idi.

Bütövlükdə, bu seçim Azərbaycanın yüksəlişinə xidmət edən ümumxalq qərarı idi. 2018-ci il aprelin 11-də seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən cənab İlham Əliyev də xalqımızın bu seçkilərdə sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs verdiyini dedi: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

## GERÇƏKLİYƏ ÇEVRİLƏN VƏDLƏR...

18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz QARABAĞ AZƏRBAYCANDIR!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət Qələbə Zəfərimizə nail olduq!

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin 2021-ci ilin martın 5-də keçirilən qurultaydakı geniş nitqi çox zəngin və keçilmiş yola verilən qiymətlə, dərin təhlillə səciyyəvi oldu. Dövlət başçısı yüksək intellektual səviyyəsi ilə seçilən proqram xarakterli çıxışı zamanı ölkəmizin son illərdə keçdiyi tarixi yola bir daha nəzər saldı. Bildirdi ki, Azərbaycan bu gün bölgənin və regionun ən qüdrətli ölkələrindən birinə çevrilib: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Dövlət başçısı bildirdi ki, bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir: "Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır".

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan 18 il müddətində Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq etməsinə baxmayaraq çox qısa bir zaman kəsiyində bütün dünyada böyük hörmət və nüfuz qazandı. Cənab Prezident İlham Əliyevin dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır.

Son 18 il ərzində Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib. Azərbaycan hərtərəfli inkişaf yolu keçib. Elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və əhəmiyyətli uğurlar qazanılıb. Bunun əsasında isə uğurlu iqtisadi siyasət dayanır. Regionların davamlı sosial-iqtisadi inkişafı təmin edilib, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənib, sosial məsələlər uğurla həll olunub. Bununla yanaşı, ölkənin artan imkanları hesabına insan kapitalının formalaşması, əhalinin sosial təminatının, xalqın rifahının daha da yüksəlməsinə yönəlmiş, Azərbaycan nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir! Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Bir sözlə, görülən işlər nəticəsində ötən 4 il dövlət başçısına etimadın ən yüksək səviyyəyə çatmasının göstəricisi kimi çıxış edir. Azərbaycanın möhtəşəm uğurlarını şərtləndirən bu siyasi kurs 2018-ci il 11 aprel prezident seçkilərində növbəti dəfə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq prezident seçilmiş cənab İlham Əliyev tərəfindən son 4 il ərzində yeni məzmunla zənginləşdirilmişdir. Prezident dəfələrlə öz çıxışlarında qeyd edib ki, bütün siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev sosial paketdən olan yeni islahatlar kursu ilə növbəti dəfə təsdiqlədi ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir.

# “Görüş səmərəsiz başa çatsa, Azərbaycan ordusu növbəti yerdəyişmələr edə bilər”

## *Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi*



***- Anar müəllim, Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü keçiriləcək. Görüşdən gözləntilər müsbət ola bilərmi?***

- Görüş Avropa İttifaqının birbaşa iştirakı ilə Azərbaycan-Ermənistan arasında münasibətlərin tənzimlənməsi və sülh razılaşmasının əldə olunması istiqamətində danışıqlarla bağlı ikinci cəhddir. Birinci görüş ötən ilin dekabr ayının 14-də keçirilmişdir. Bu görüş zamanı Ermənistanın və erməni diaspor təşkilatlarının, dairələrinin ciddi cəhdinə baxmayaraq, Ermənistanın maraqlarına və istəklərinə xidmət edəcək heç bir addım atılmadı. Hətta görüşdən sonra keçirilən mətbuat konfransında və səsləndirilən bəyanatda "Dağlıq Qarabağ" və Qarabağdakı ermənilərə hər hansı bir statusun verilməsi məsələsi nəinki müzakirə edildi, hətta bəyanatlarda belə səsləndirilmədi. Hesab edirəm ki, Şarl Mişelin təşəbbüsü ilə keçiriləcək növbəti görüşdə yenə də Ermənistan öz istəklərinə nail ola bilməyəcək və Ermənistan maraqlarına xidmət edəcək hər hansı bir ifadədən, terminindən istifadə olunmayacaq və əldə oluna biləcək yekun sənədə, razılaşmaya da bu istiqamətdə hər hansı bir ifadə və ya bənd əlavə edilməyəcəkdir.

***- Ermənistan 10 noyabr razılaşmasının müəyyən bəndlərini hələ də yerinə yetirmir. Bu məsələ görüşdə müzakirə ediləcəkmi?***

- Bəli, 44 günlük Vətən müharibəsinin bitməsindən sonra 10 noyabr bəyanatı və ondan sonra keçən müddət ərzində bir çox görüşlərdə razılaşmalarda Ermənistan Cənubi Qafqazda sülhün təmin edilməsi, birgə yaşayışın əldə olunması qarşılıqlı inam və etimad mühitinin formalaşması istiqamətində eləcə müxtəlif istiqamətli, kommunikasiya xətlərinin açılması ilə bağlı öz üzərinə öhdəlik götürüb. Amma təəssüf ki, ötən müddət ərzində bu öhdəliklər yalnız bəyanatlar söz səviyyəsindən irəli getməyibdir. Ermənistan bu istiqamətində heç bir praktik real addımlar atmayıb. Bu, onu göstərir ki, Ermənistan müxtəlif platformalarda manevrlər edərək öz maraqlarına uyğun qərarlar çıxartdırmağa və mümkün qədər Azərbaycandan əlavə güzəştlər əldə etməyə çalışır və buna nail ola bilməyəndə üzərinə hər hansı bir öhdəlik götürsə də, sonradan ona əməl etməsindən yayınmağa çalışır. Brüssel keçiriləcək görüşdə Ermənistanın üzərinə əlavə öhdəliklərin qoyulması ilə yanaşı, bu günə qədər üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi məsələsi müzakirə olunmalıdır və yəqin ki, olunacaqdır. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri ilə keçirdiyi görüşdə də çox mühüm bir fikir səsləndirdi, Azərbaycan Prezidenti açıq şəkildə, açıq mətinlə bəyan etdi ki, "Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı addımlar atılmalıdır". Yəni Ermənistanın üzərinə kifayət qədər öhdəliklər götürüb və təəssüf ki, bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı Ermənistana bu günə qədər hər hansı bir təzyiqlər edilməyibdir. Hesab edirəm ki, beynəlxalq bir platformadan Avropa Birliyi platformasından istifadə edərək Azərbaycan Prezidenti cənab İlham Əliyev Paşinyana üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq təzyiqlərin artırılması istiqamətində addımların atılmasını, fikirlərin səslənməsini səsləndirəcəkdir.

***- Görüş sülh müqaviləsinin imzalanmasında mühüm rol oynaya biləcəkmi?***

- Hesab edirəm ki, Brüssel görüşü Ermənistan-Azərbaycan arasında münasibətlərin tənzimlənməsi istiqamətində, daha çox Ermənistanın üzərinə götürdüyü öhdəliklərlə bağlı vaxtın məyyənləşdirilməsi ilə bağlı yadda qalacaq görüş olacaq. Düşünürəm ki, bu görüş zamanı Ermənistan artıq real sahədə praktik olaraq addımların atılması ilə bağlı vaxtı üzərinə götürəcəkdir. Düşünürəm ki, Ermənistanın siyasi elitası, Paşinyan Ermənistan dövlətinin taleyini və onun gələcəyini düşünürsə, Şarl Mişelin təşəbbüsü ilə təşkil edilən bu görüşdən səmərəli istifadə etməlidir və Azərbaycanla, Türkiyə ilə münasibətlərinin tənzimlənməsi istiqamətində artıq sözlərdən uzağa gedib, sözlərdən əməli praktiki addımlara keçib real addımların atılmasına başlayacaqdır. Hesab edirəm ki, əks halda Azərbaycan dövləti növbəti uğurlu gedişlər edərək Ermənistanı yenə də çıxılmaz vəziyyətə sürükləyəcəkdir. Bu halda Azərbaycan ordusu növbəti yerdəyişmələr edə bilər. Əgər bu görüş də səmərəsiz başa çatsa, Azərbaycan ordusu növbəti yerdəyişmələr edə bilər və yenə də növbəti yüksəklikdə və ya yaşayış məntəqəsində Azərbaycan bayrağı dalğalanacaq.

***Gülyana***

# İrəvanda Serjikə “dəstək” mitinqi...

**...Deyəsən, bu dəfə gələn dərd biz ermənilər üçün daha qaçılmaz olacaq. Odur, deyilənlərdən əlavə, özümüz də Rusiyanın "batdığını" görürük. Təbii ki, Rusiya batsa, şübhəsiz ki, bizi də yedəyində (quyruğunda da demək olar) çəkib aparacaq. Onda lap fransız qardaşlarımızın da, kiçik bir bacı kimi, bizi qurtara biləcəyinə inanmıram. Çünki, bu gün şərait elə inkişaf edir ki, sabah biz Rusiyanın ən müti qul... şəriklərindən biri olmadığımızı heç kimə sübut edə bilməyəcəyik.**

Onda, vay bizim halımıza... Əslində, etiraf etməliyik, yəni hər şeyin ilk baxışdan bizim üçün göründüyündən daha pis olduğunu deməliyik. Amma,.. kimə deyəsən?

...Budur, ermənilərin bu dərdli günündə Serjik Sarkisyanın qulbeçələrindən biri olan Armen Aşotyan da özünə iş tapıb...milləti Teatr meydanına-mitinqə çağırır.

Özü də deyir ki, bugünkü toplantımız çox spesifik, erməni siyasi elitasının beynəlxalq ictimaiyyətə mesajları əhtiva edən məsələlərdən ibarət gündəmlə müşayət olunacaq gözəl bir mitinq olacaq.

Gəlin və görün. Amma gələndə qonumqonşunuzu da gətirməyi unutmayın. Çünki, mitinqdə sizlər üçün keçmiş, amma mənim üçün daimi Ermənistan prezidenti olaraq



qalan Serjik Sarkisyanın da çıxışı gözlənilir. Qoy, o da onun üçün mitinqə gələnlərin say çoxluğundan "feyziyab" olsun.

...Təbii ki, bu gün ermənilərin çoxu Armen Aşotyanın bütün bu oyunlarının nəyə hesablandığını yaxşı bilirlər. Əslində bütün bunlar Serjik üçün yenidən "təxtdə" yer eləməyə hesablanıb.

Amma bunun üçün nə lazımdır,.. yenə də təbii ki, Nikolu aşağılamaq. Deyim ki, Armen Aşotyan bu sahədə də artıq müəyyən "təcrübəyə" sahib ola bilib.

Qeyd edim ki, Armenin fikrincə, bir mitinq, əlbəttə ki, Ermənistandakı bütün problemləri həll edə bilməz, lakin mitinqlər Ermənistanın dirçəliş prosesinin başlanğıcı ola bilər. ...Siz deyin, kimin ağlına gələ bilərdi? Əlbəttə ki, Armenin...

...Siz hələ biri politoloq Andranik Miqranyana qulaq kəsilin.

Doğrudur, o ayaqlarının ağrımasını əsas gətirib mirinqə gələ bilməyəcəyinə görə "üzürxahlıq" etsə də, amma evdən Nikol Paşinyanın ünvanına xeylam döşəyib.

Məsələn, Miqranyan iddia edir ki, erməni baş nazir Ermənistanın Türkiyə və Azərbaycanın uzaqgörən iddialarına tab gətirə biləcək sonuncu ümid yerini, dəstəyini öz əlləri ilə məhv edir.

Maraqlıdır, görən, ermənilər üçün nədir bu ümid yeri və ya dəstək? Miqranyan onu da açıqlayır. Deyir ki, aprelin 6-da sülh müqaviləsinin imzalanması kontekstində Ermənistan rəhbərliyi Azərbaycanın irəli sürdüyü 5 bəndlik tələbləri qəbul edəcək ki, bu da bütün erməni mövqelərinin total təslim olmasıdır.

***Ağasəf Babayev***



# Erməni təxribatları nə vaxta qədər davam edəcək?

**“Azərbaycanın Ermənistan üzərində qazandığı qələbədən bir il yarımdan çox vaxt keçir. Amma hələ də erməni tərəfinin təxribatları ilə qarşı-qarşıya gəlirik”. Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov bildirib.**

Onun sözlərinə görə, istər Azərbaycan ərazisində yerləşən sülhməramlı qüvvələrin, istərsə də erməni tərəfinin törətdiyi iğtişaşlar nəticəsində dövlət sərhədində mütəmadi olaraq atəşkəs pozulur: "Burada təəccüblü bir hal yoxdur. Ona görə ki, biz hələ də Ermənistanla sülh müqaviləsi bağlamamışıq. Yəni hal-hazırda biz müharibə şəraitindəyik. Sadəcə düşməni öz sərhədləri çərçivəsinə qovmuşuq. Onlar orada təxribat törətməklə məşğuldur. Əsas odur ki, Azərbaycanın bölmələri sərhəd boyu ərazilərə nəzarət edir və düşmənin hər hansı bir təxribatına adekvat cavab verməyə qadirdir. Bilirik ki, Ermənistanda hələ də revanşist qüvvələr üstünlük təşkil edir. Paşinyan dövlət rəhbəri olsa da onun nüfuzu çox aşağıdır. Ona görə də atəşkəsin pozulması, təxribatların olması normal haldır. Çünki Ermənistanda nə güclü dövlət, nə də güclü lider var. Ermənistanda kim hakimiyyətə gəlirsə gəlsin onları kənardan hər zaman idarə edirlər. Hər zaman da o qüvvələrin sifarişlərini yerinə yetirməklə məşğuldurlar.

Bu təxribatların nə zaman bitəcəyi dəqiq deyil. Təxribatların qarşısını almaq üçün sülh müqaviləsi olmalıdır. Son zamanlar Ermənistan geosiyasi fonda sülh müqaviləsi bağlamaq istəyirdi. Amma düşünürəm ki, bu da taktiki addımdır. Ola bilsin ki, Paşinyan hakimiyyəti bunu istəsə də müxalif qüvvələr və Paşinyanın nüfuzunun aşağı olması bunun qarşısını alır. Onlar sözdə sülh müqaviləsini imzalamaq istəsələr də əməldə başqa cür hərəkət edirlər. Sülh müqaviləsi üçün Azərbaycan dövləti 5 şərt irəli sürüb. Ermənistan tərəfi bu şərtləri qəbul etdiyi təqdirdə sülh müqaviləsi imzalana bilər. Hələ ki, bununla bağlı heç bir irəliləyiş yoxdur. Cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində Ermənistan bu müqaviləni imzalamaq məcburiyyətində qalacaq. Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə nail olacaq".

***Abutel İlhamqızı***





# Azərbaycanda korrupsiyaya qarşı mübarizə gücləndirilir

## Dövlət başçısının Sərəncamı ilə təsdiqlənmiş Milli Fəaliyyət Planı dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılmasına töhfə verəcək

**Sosial ədalət və demokratik prinsiplərə əsaslanan islahatlar ölkəmizdə milli və müasir idarəetmə modelinin qurulması istiqamətində mühüm rol oynayır. İslahatların əsas məqsədi səmərəli və demokratik idarəçiliyin formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılmasıdır. Əlbəttə ki, həyata keçirilən tədbirlər ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunmasına istiqamətləndirilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar ən müasir demokratik mexanizmlərin yaradılması və xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelinin, vətəndaş - dövlət qulluqçusu münasibətlərində yeni düşüncə tərzinin, eləcə də korrupsiyaya şərait yaradan halların aradan qaldırması üçün zəmin yaradıb.**

Xatırladaq ki, son illərdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır. 2004-cü il yanvarın 13-də qəbul olunmuş "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunun tətbiqi ilə əlaqədar "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqamının (2004-2006-cı illər) layihəsi hazırlanaraq Azərbaycan Prezidentinin 3 sentyabr 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Korrupsiyaya qarşı səmərəli mübarizə mexanizmlərini müəyyənləşdirən Dövlət Proqramı uğurla icra olunmuşdur. Belə ki, ölkədə şəffaflığın təmin olunmasını və korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha geniş miqyasda aparılmasını təmin etmişdir. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yaradılması da bu istiqamətdə həyata keçirilən mühüm tədbirlərdən biridir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi üçün 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" uğurla icra edilmişdir. "2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında" dövlət şəffaflığın artırılması, hesabatlılığın, yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit olunmuşdur.

### ÖLKƏMİZDƏ SOSİAL DÖVLƏTİN YENİ MODELİ FORMALAŞIB

Bu, ölkəmizdə insanların yüksək sosial rifahına yönəlib. Görülən işlərin davamı olaraq dövlət başçısı "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bu Sənədin təsdiqlənməsi dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi daşıyır. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir. Korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır.

### KORRUPSİYANIN QARŞISININ ALINMASI İLƏ BAĞLI MÜASİR EFFEKTİV MEXANİZMLƏR TƏTBİQ EDİLİR

Məlumdur ki, korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına da mane olur. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılması, sahibkarlığın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılması istiqamətində ölkəmizdə kifayət qədər işlər görülmüş və dövlət rəhbərliyi tərəfindən bir çox tədbirlər həyata keçirilmişdir. Milli Fəaliyyət Planında qeyd olunduğu kimi, korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır. Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

### KORRUPSİYADAN AZAD MÜHİT VƏ ŞƏFFAFLIQ KİMİ KOMPONENTLƏR İNKİŞAFIN BAŞLICA AMİLLƏRİDİR

Milli Fəaliyyət Planında o da qeyd olunur ki, Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılmışdır. Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir. Ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin effektivliyini və davamlılığını təmin edəcək yeni bir sənədin - Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planının qəbul edilməsini şərtləndirir.

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin müvafiq icraçı qurumlar üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Ölkəmizdə korrupsiyaya qarşı mübarizənin səmərəli və keyfiyyətli olması üçün dövlət səviyyəsində tədbirlər görülür və bu mübarizə aşkarlıq şəraitində aparılır. Azərbaycan hakimiyyəti bir çox dövlətlərin təcrübəsini nəzərə alaraq, bu sosial bəlaya qarşı qətiyyətlə mübarizə aparır, təkamül və islahatlar yolu ilə korrupsiyanın aradan qaldırılmasına çalışır. Cəmiyyətin inkişafına mənfi təsir göstərən neqativ təzahürlərə qarşı mübarizə dövlət başçısının daim diqqət mərkəzində olmuş, bununla əlaqədar müvafiq qərarlar qəbul edilmiş və tədbirlər həyata keçirilmişdir. Milli Fəaliyyət Planında əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, şəffaflığın artırılmasına, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyət etibarilə yaxşılaşdırılmasına müsbət təsirini göstərəcəkdir. Eyni zamanda, ictimai nəzarətin təşkilində və korrupsiyanın ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət edəcəkdir.



*Nəzakət ƏLƏDDİNQIZI*

# Ötən 4 il sübut etdi ki, xalq öz seçimində yeganə düzgün qərar qəbul edib

**11 aprel 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin növbəti prezidentlik müddətinin dörd ili tamam olur. 11 aprel 2018-ci il tarixdə keçirilən Prezident seçkilərində 86,03 faiz səs toplayan İlham Əliyevi xalqımız yenidən Azərbaycan Respublikasının Prezidenti postunda görmək istədi. Əslində, bu seçim həm də o demək idi ki, xalqımız İlham Əliyevə səs verərkən ümummilli lider Heydər Əliyev siyasətinə yenidən səs vermiş oldu. Azərbaycan xalqı müdrik bir seçim edərək öz taleyini növbəti 7 ildə yenidən cənab İlham Əliyevə həvalə etdi. Ötən 4 il sübut etdi ki, xalq 11 apreldə öz seçimində yanılmayıb və yeganə düzgün qərar qəbul edib.**



***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***

Qeyd edim ki, 2018-ci il fevral ayında Yeni Azərbaycan Partiyasının VI Qurultayı keçirildi. Qurultayda partiyamızın Sədri, dövlət başçısı İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürüldü. Çünki qəbul olunan tarixi qərar partiyamızın yüzminlərlə üzvünün, bütün xalqımızın arzu və istəyi idi. Çünki cənab İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti dövründə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" vədinə sadiq qalıb, Onun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bütün sferalarda böyük inkişaf yolu keçib.

2018-ci il aprelin 11-də keçirilən prezident sekilərindən ötən 4 ildə cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atılıb. Əslində bu nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası ilə 2003-cü ildən başlanan yolun cənab İlham Əliyevin yeni tarixi şəraitə, yeni çağırışlara uyğun olaraq uğurla və qətiyyətlə davam etdirməsinin reallığıdır. Ən böyük tarixi qələbəmiz isə 30 il həsrətində olduğumuz torpaqlarımıza 44 gün davam edən İkinci Vətən Müharibəsinin Qələbə Zəfəri ilə qovuşmağımız oldu. Çünki 2003-cü ildən bu günə qədər ölkənin potensialı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldildi. Prezident öz çıxışlarında hər zaman qeyd edirdi ki, məhz işğal siyasətinə görə Ermənistanı bütün regional layihələrdən təcrid edib. Ölkə başçımız tərəfindən düşünülmüş bu siyasətin nəticəsidir ki, Ermənistan heç bir perspektivi olmayan dalan dövlətə çevrildi. Bu baxımdan da əminliklə deyə bilirik ki, Azərbaycanın qazandığı bu qələbə sadəcə 44 günlük müharibənin nəticəsi deyil.

Dövlət başçımız bildirmişdir ki, İkinci Qarabağ müharibəsini şanlı tariximiz, əbədi qürur hissi keçirəcəyimiz tariximizdir: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq".

Bəli, Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.

Azərbaycan 30 ilə yaxın dövrdə haqq səsini dünyaya çatdırmaq üçün bütün imkanlarını səfərbər etdi, ən yüksək tribunalardan Ermənistanın işğalçılıq siyasətini pislədi, dünyanın aparıcı dövlətlərinə və nüfuzlu beynəlxalq təşkilatlara çağırış etdi ki, həqiqətlərə həqiqət gözü ilə baxmaq zamanıdır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu son 18 ildə uğurla davam etdirən Prezident İlham Əliyev bütün platformalarda Azərbaycanın milli maraqlarını prinsipiallıqla müdafiə edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 gündə yazdığı şanlı tarix bir daha təsdiqlədi ki, hadisələrə ən böyük dəyəri zaman özü verir, ən əsası, Azərbaycan Prezidenti nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilir. İndi bərpa, quruculuq dövrü gedir, Azərbaycan bütün dost ölkələri bu prosesdə iştirak etməyə çağırır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, hazırda ən böyük problem minalardır. Ermənistan minalanmış sahələrin xəritəsini verməyib. Bu, daha bir müharibə cinayətidir. Lakin Azərbaycan yenə də bu yanaşmalara görə ruhdan düşmür, tarixi torpaqlarına qayıtdığı üçün qürur duyur, minatəmizləmə prosesini uğurla həyata keçirərək yenidənqurma işlərini planlaşdırır. Əldə olunan bu qələbədə ən əsas mühüm amil ondan ibarətdir ki, bu gün ölkəmizdə güclü və sıx xalq-iqtidar birliyi mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev bu birlikdən daha da güc alaraq qarşıda duran əsas vəzifələri şərəflə yerinə yetirir, sözünün imzası qədər dəyərli olduğunu atdığı hər addımla, həyata keçirdiyi siyasətlə sübut edir.

Məhz bu birliyin nəticəsidir ki, bugünkü müstəqil Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclüdür, böyük beynəlxalq nüfuza malikdir, etibarlı tərəfdaşdır. İndi Azərbacan iki böyük beynəlxalq təşkilata, BMT-dən sonra dünyada ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkətinə və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik etməkdədir. Təkcə bu iki fakt Azərbaycanın beynəlxalq nüfuzundan xəbər verməklə onun beynəlxalq nüfuzunun sübutu kimi qəbul edilir. 2003-cü ildən başlanan islahatlar, son iki ildə həyatımızın bütün sahələrini əhatə etməklə cənab Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə daha qətiyyətlə, əzmlə və uğurla davam etdirilir və öz nəticələrini verir. Ölkəmiz bütün sahələrdə heç vaxt olmayan uğurlar qazanır. Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bütün bu uğurların kökündə xalqla iqtidarın sarsılmaz birliyi, cənab İlham Əliyevin yorulmaz fəaliyyəti dayanır.

Xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmış Prezident İlham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışındakı bu sözlər hər bir ölkə vətəndaşını qürurlandırır: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Göründüyü kimi, qürur doğuran, Azərbaycanda yeni keyfiyyət dəyişikliklərinin əsasının qoyulduğu son prezident seçkilərindən ötən 4 il bir daha göstərir ki, seçkidə iştirak edən vətəndaşların 86 faizindən çoxunun öz səsini məhz İlham Əliyevə verməsi təsdiq etdi ki, Azərbaycan xalqı respublikamızın yüksəlişinə və qüdrətlənməsinə aparan siyasi xətti birmənalı dəstəkləyir. Bu qələbənin təməlində Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi 2003-cü ildən ötən 18 il ərzində gördüyü işlər, Azərbaycanın iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar, Heydər Əliyev yoluna olan inam dayandı. Bütün bunları rəhbər tutan seçicilərin mütləq əksəriyyəti seçimini məhz ötən dövrün sosial-iqtisadi uğurların nəticəsini göstərən səmərəli islahatların üzərində qurdu. Seçkilərin nəticəsi göstərdi ki, vətəndaşlar Prezident İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və çox böyük etimad bəsləyir. Bu etimad həm də perspektiv nailiyyətlərə hesablanan siyasi kursun yenilməzliyinə və alternativinin olmadığına olan inamın təcəssümü idi.

Bütövlükdə, bu seçim Azərbaycanın yüksəlişinə xidmət edən ümumxalq qərarı idi. 2018-ci il aprelin 11-də seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən cənab İlham Əliyev bildirmişdir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

Bəli, görülən işlər, əldə olunan uğurlar, bu uğurları təsdiqləyən real faktlar birp daha göstərir ki, bu qısa zaman kəsiyində Prezident İlham Əliyevi xalqa sevdirən cəhətlər dövlət başçısının daim xalqın yanında olması, verdiyi bütün vədləri yerinə yetirməsidir. Qarşıda isə bizi yeni qələbələr, o cümlədən Qarabağın dirçəlişi gözləyir. Azad edilmiş bütün torpaqlarımız qısa müddətdə yenidən qurulacaq və xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı bundan sonra da daha böyük inkişafa aparacaq, yeni uğurlara imza atacaq.



**Təhmasib Novruzov**

# Korsikaya azadlıq!!!

**Bu dünya binayi-qədimdən elə qurulub ki, kim kimə hansı qərəzli pisliyi edirsə, gec-tez özünün başına gəlir. Yəni, elimizin dilində deyildiyi kimi, "etmə, bulma" dünyasıdı dünyamız. Çünki yaradan dünyanı haqq və ədalət bazasında yaradıb. Elimizin bir deyimi də var: nə tökərsən aşına, o da çıxar qaşığına!**

Neçə illərdi ki, dünyaya haqq-ədalət dərsi keçən Fransanın Azərbaycana qarşı ədalətsiz iddialarını eşidirik. Həm də təkcə iddialarını yox, ədalətsiz siyasi yanaşmasını, parlamentlərinin ədalətsiz qərarlarını da izləyirik. Avropanın ən önəmli ölkələrindən biri olan firəngistan təkcə özü belə siyasət sərgiləməklə kifayətlənməyib, digər Avropa İttifaqı ölkələrini də ölkəmizə qarşı qışqırtmaq üçün dəridən-qabıqdan çıxır. Nə var, nə var, bu ölkədə beş-on dığa prezident seçkilərində babat pul xərcləyir və hər gələn prezident də bu puldan yararlanmaq üçün onların istəkləri ilə "siyasət" yürüdür. Vaxtilə xahiş-minnətini nəzərə alıb Qarabağ probleminin həllində də vasitəçilik etmək istəyini qəbul etdik ki, bəlkə mandatına hörmət edib tərəfsiz qala. Amma haradan? Erməni milyonları olan yerdə mandat-zad nədi? Beləcə, on illərdi ki, Qarabağ probleminin həllində "vasitəçi" olmasına rəğmən tərəf nümayiş etdirən bir ölkənin bu çılğınlıqlarına da səbr etdik. Arada Dərviş Məstəli şah babamızı çağırıb dedik ki, yüz əlli əvvəlki partlayışı unudan bu məmləkət əhlinə gücünü yenə göstərsin. O da gəldi, Əlixa, Vəlixaya da sarı jilet geyindirib saldı ortalığa, amma yenə ağıllanmadı ki, ağıllanmadı firənglər. Yenə kor tutduğunu buraxmadığı kimi, deyirlər ki, yox, Qarabağa müstəqillik verilməlidi (Biz ona dirsəyimizi tuşladıqca, erməni pulu gözlərini necə qamaşdırıbsa, onu da görmək belə istəmirlər). Hələ də anlamırlar ki, nəinki müstəqillik, hər hansı bir status qatarı da çoxdan ötüb gedib. Firəng siyasilər, firənglərin parlamenti nə qədər yüyürsələr də, qatara çata bilməzlər daha. Bir mahnıda deyilənin əksinə firənglərə deyirik ki, dığaları yığın başınıza, bu qatarın dalınca baxın! Baxın ki, onun hansı sürətlə şütüdüyünü görəsiniz, bəlkə onda boş-boş iddialarınızdan vaz keçəsiniz.

Xülasə, keçək sözümüzün canına, yəni mətləbin orta göbəyinə. İndi Fransanın Korsika adasında millət qalxıb ayağa ki, biz firənglərlə birgə yaşamaq istəmirik, ayrı dövlət olmaq istəyirik. Özü də, yazıq korsikalılar, dığalar kimi silahlı dəstə-flan yaradıb firənglərə güllə-zad da atmırlar e... Sivil qaydada, normal iddia irəli sürürlər. Amma bu sivil topluma firənglər güllə atır, tutub zindanlara doldururlar. Niyə? Ona görə ki, Fransa bütöv, unitar (?) dövlətdi, onun beynəlxalq aləmdə tanınmış sərhədləri var, onun ərazi bütövlüyü pozula bilməz və sairə. Lənət şeytana, burda deyirlər öz gözündə tiri görməyən, özgənin gözündə tük axtarır. Ay mən deyən, sənin ərazin, ərazi toxunulmazlığın halaldı, bizimki haram? Bu, hansı kitabda, hansı ədalət qanununda yazılıb ki, bir ölkə ərazi bütövlüyünü silahla, qanla qoruya bilər, amma başqa ölkəyə bu yasaqdır? Mən Korsikanın da, korsikalıların da tarixini bilmirəm, heç bilməkdə elə maraqlı da deyiləm. Bildiyim təkcə odur ki, Fransa tarix boyu imperialist dövlət olub, harda bir gücsüz, fağır xalq tapıbsa, dərhal başının üstünü alıb, onları müstəmləkəsinə çevirib, var-dövlətlərini əllərindən alıb daşıyıb firəngistana. Yəni, yetim-yesirin malı hesabına gəlib olub indiki varlı, dövlətli ölkə. Əminəm ki, əsrlər boyu korsikalılara da eyni yanaşma olub və artıq zavallılar buna dözmək istəmirlər, öz məmləkətlərinin sahibi olmaq, qazandıqlarını da özlərinə xərcləmək istəyirlər. Amma hardan? Dünyaya ədalət moizəsi oxuyan firənglər deyir ki, yox, elə siz qazanıb bizimlə bölməlisiniz. İndi kiçik bir müqayisə aparaq. Ermənilərin Qafqaza gəlişinin cəmi bir neçə yüz il tarixi var. Konkret Qarabağda isə tarixin heç bir dönəmində erməni yaşamayıb, yalnız XIX əsrdə, Çar Rusiyasının imperialist siyasətinin tərkib hissəsi olaraq burda ermənilərin sayını artırmaq məqsədilə İrandan, Türkiyədən köçürüb gətiriblər Qarabağa (təbii ki, həm də Göyçəyə, İrəvana, Zəngəzura). Ötən əsrin əvvəllərində çığır-bağır saldılar ki, bizim də dövlətimiz olsun, firənglərin və firəngkimilərin təzyiqi ilə onlara ərazi verdik, indi Ermənistan adlanan layihələrini gerçəkləşdirdilər. Nədi, dişlərində şirə qalıb? (Elə bil torpaq ehsanı paylayırıq!) Min illər boyu Azərbaycan türklərinin yaşadıqları böyük bir ərazidə, humanistlik edib onlara dövlət qurmaq üçün ərazi verdik. Amma belə davam eləsə onu geri tələb edəcəyik, çünki ərazi verilərkən razılaşdırılmış şərtləri məhz haylar pozublar və pozmaqda da davam edirlər. Amma korsikalılar min illərdi yaşayırlar bu adada. Olmazmı ki, bizə "ağıl" vermək istəyən firənglər özləri bir az "ağıl" nümayiş etdirib, Korsikaya müstəqillik versinlər? O zaman firənglərin bizə olan münasibətini nəzərə alıb bizim də onlara iddia irəli sürməyə niyə haqqımız olmasın? İddiamız da dəqiq və konkretdir: KORSİKAYA AZADLIQ!

ANALİTİK + AKTUAL

# Şərq-Qərb qarşıdurmasında QURBANLIQ Ukrayna

**Artıq belə qənaətə gəlmək olar ki, əgər müharibənin aparılmasını müəyyən edən yazılmış qanunlar, konvensiyalar mövcuddursa, təəssüf ki, həmin qanun və qaydaları tapdalayan, tanımayan, rədd edən yazılmamış qanunları da var**



Ukraynada baş verən hərbi-geosiyasi olaylar fonunda Şərq-Qərb qarşıdurmasının getdikcə şiddətlənməsi artıq belə nəticəyə gəlməyə zəmin yaradır ki, əslində, "bu xəmir hələ çox su aparacaq". Əgər Rusiyanın Ukraynaya hərbi müdaxiləsi başlayanda iddialar olunurdusa ki, paytaxt Kiyev bir həftəyə götürüləcək və ruslar orada hərbi parad keçirəcəklər, indi həmin iddialar tamamilə əks istiqamətə doğru yönəlib. Artıq ABŞ və Britaniya kimi ölkələrin hərbi dairələri də əldə etdikləri kəşfiyyat mənbələrinə əsaslanaraq dəqiq proqnozlar verməkdə çətinlik çəkirlər. Hansı ki, ötən həftənin əvvəlində müharibənin may ayında başa çatacağı bildirilirdisə, bu günlərdə Pentaqonun rəsmi açıqlamasında iki ölkə arasındakı savaşın aylarla (hətta daha çox!) davam edəcəyi barədə siqnallar verilməyə başlayıb. Görünən isə budur ki, nə Rusiya öz ambisiyalarından, nə də Ukrayna öz müqavimətindən geri çəkiləsi deyil.

## Son vaxtlar hər iki tərəfdə çox kəskin aqressiya mühitləri yaranmağa başlayıb

Bir müddət əvvəl Türkiyənin Antalya və İstanbul şəhərlərində keçirilən görüşlər isə, ilk olaraq, müəyyən ümid qığılcımları yaradırdısa, eyni zamanda, həm Rusiya, həm də Ukrayna tərəflərindən ehtiyatlı fikirlər səslənirdisə, artıq bu gün müharibə reallığının get-gedə uzanması prosesi daha aydın şəkildə görünür və bütün bunlar, ilk növbədə, ukraynalılara çox ağır, sarsıdıcı zərbələr vurur. Yeni məsələ yalnız onda deyil ki, Ukrayna bir sıra yaşayış massivlərini, ərazilərini azad edə bilib, məsələ ondadır ki, ortada çoxsaylı günahsız, dinc insanlar, azyaşlı uşaqlar, qadınlar həlak olurlar, şəhərlər ağır dağıntılara məruz qalır, infrastrukturlar sıradan çıxarılır və son vaxtlar hər iki tərəfdə çox kəskin aqressiya mühitləri yaranmağa başlayıb. Əvvəllər hərbi əsirlər götürülərək dəyişdirilirdisə, indi onların sorğusuz-sualsız güllələnərək, ya da digər qeyri-insani vasitələrlə öldürülmələri kadrları sosial şəbəkələrə sızmaqdadır. Artıq belə qənaətə gəlmək olar ki, əgər müharibənin aparılmasını müəyyən edən yazılmış qanunlar, konvensiyalar mövcuddursa, təəssüf ki, həmin qanun və qaydaları tapdalayan, tanımayan, rədd edən yazılmamış qanunları da var. Məhz indiki müharibə daha çox yazılmamış qanunlar üzərində köklənməyə başlayıb. Qisasçılıq, amansızlıq, daha çox qan...

Və biz əbəs yerə yazının əvvəlində Rusiya-Ukrayna müharibəsini Şərq-Qərb qarşıdurması olaraq göstərmədik. Hətta bu gün Ukraynanın savaş və dəhşətli faciələr meydanına çevrilməsi amilinin kökündə Qərb maraqlarının dayanması da artıq hər kəsə gün kimi aydındır. Bəli, Ukrayna Qərbə inteqrasiya yolunu seçib və bu seçim onun müstəqiliyi ilə yanaşı, həm də geosiyasi marağının təmin olunmasıdır, amma Rusiya da öz sərhədlərində Qərbin hərbi-siyasi dairələrinin olmamasını israr edir, NATO-nun Şərqə doğru genişlənməməsi üçün şərtlərini irəli sürür. Rusiyanın maraqları ilə də, əsasən, Şərq hərbi-siyasi dairələri bölüşürlər. Belə olan halda, biz Ukraynanın, sadəcə, qurbanlıq rolunda olduğunu görürük.



## Azərbaycan torpaqları 30 il boyunca Ermənistanın işğalı altında qalarkən Qərb susurdu!

Bəli, bu gün ABŞ-ın, Qərbi Avropanın NATO-ya üzv olan ölkələrinin əksər çoxluğu Ukraynaya istər maliyyə, istərsə də silah, hərbi texnika yardımlarını əsirgəmirlər və bu xüsusda xırda bir detaya da eyham vurmaq olar. Misal üçün, Azərbaycanın torpaqları 30 il boyunca Ermənistanın işğalı altında qalarkən, işğal faktını təsdiq edən qətnamələr qəbul edilərkən, qəbul edilən qətnamələr Ermənistan tərəfindən qulaqardına vurularkən, insanlığa qarşı hərbi cinayətlər törədilərkən, mülki azərbaycanlılara qarşı amansız soyqırımı və qətliam faktları ortaya çıxarılarkən bu gün Ukraynaya hərbi və maliyyə yardımlarını ardı-arası kəsilmədən göndərən həmin Qərb susurdu və bu susqunluq işğalçıların əl-qollarını daha da açırdı!

Yaxud, hazırda dünya mediasında Ukrayna şəhərlərində mülki əhaliyə qarşı törədilən qətliam hadisələri dəhşətli, insanlığı, bəşəriyyəti utandıran faciə olaraq qiymətləndirilir və söz yox ki, haqlı olaraq da belə nəticəyə gəlinir. Ancaq nəyə görə dünya, xüsusilə aparıcı Qərb ölkələri eyni hadisələr Azərbaycan xalqına qarşı törədilərkən uzağı "tərəfləri sülhə çağıran bəyanatlar" səsləndirməklə işini bitmiş hesab edirdi? Bəli, ikili standartlar və eyni zamanda, millətlər, dinlər arasında yaradılan ayrıseçkilik! Əgər belə olmasa idi, illərdir müsəlman ölkələrində baş verən faciələr haqqında da Ukraynada olduğu kimi sərt münasibətlər bildirilə, insanları faciələrin ağuşundan alınması üçün təxirəsalınmaz tədbirlər görülə bilərdi. Bu gün Yəməndə, Suriyada və s. müsəlman ölkələrində baş alıb gedən olaylara Qərb susmaqda davam edir və susduqca özünü daha çox ifşa etmiş olur.

## Ukraynanın Qərbdən asılı qalmağından başqa çıxış yolu yoxdur - SƏBƏBLƏRİ

Ukraynaya gəldikdə isə, artıq bu ölkənin Qərbdən asılı qalmağından başqa çıxış yolu yoxdur. Ukrayna ya siyasi oriyentasiyasını dəyişməklə Rusiyaya tərəf meyillənməli, ya da bundan imtina edərək Qərbin ətəyindən yapışmalı, xilasını axtarmalıdır. Daha bir amil Ukraynada 2000-ci illərin əvvəllərindən başlayan "Maydan" hərəkatlarında dolğun, siyasi cəhətdən bilgin şəxslərin, sözün əsl mənasında isə güclü liderin ortaya çıxmamasıdır. Məhz bir-birini əvəzləyən dövlət başçılarının siyasi maraqlarının qurbanlarına çevrilən Ukrayna dövləti və xalqı indi həmin faktorların ağırlığını müharibə ilə ödəməkdədir. Bəli, mövcud müharibə Zelenskinin bəxtinə tuş gəldi, amma onun bundan sonra nə qədər dayana biləcəyi də suallar doğurmaqdadır. Hətta müharibənin qələbə ilə başa çatması belə ölkəyə, xalqa dəymiş ziyanın miqyaslarının aradan qaldırılmasına səmərə verməyəcək, bunun üçün isə uzun illər tələb ediləcək. Fakt isə budur - əfsuslar olsun ki, Ukrayna torpaqları yanmaqda davam edir...

Göründüyü kimi, Qərb özünün müharibə yardımlarını "geniş ürəkli vasitələrlə" Ukraynaya təqdim edir, deyir ki, "gedin son adamınıza qədər dünyanın ikinci ən güclü ordusu olan Rusiyaya qarşı döyüşün və biz sizin arxanızdayıq" (?!)

Onda digər bir sual yaranır - hərgah Ukraynanın yanındasınızsa, nəyə görə müharibəni dayandırmağa az da olsa səbəb yarada biləcək digər təcili siyasi qərarları vermirsiniz? Məsələn, nəyə görə Ukraynanın prezidenti Vladimir Zelenskinin dəfələrlə (!) təkrar etdiyi, hətta tələb etdiyi NATO faktorunu mexanizm olaraq işə salmırsınız? Axı o müharibə başlamamışdan əvvəl də, indi də ölkəsinin NATO-ya təxirəsalınmaz şəkildə üzv götürülməsini tələb edib! ABŞ isə "nüvə müharibəsi təhlükəsi" iddiasını ortaya atmaqla Zelenskinin tələbini, sözün əsl mənasında, rədd edib, bu gün də etməkdədir (?!)

Beləliklə, Qərb Ukraynaya silah verməklə, əslində, müharibənin daha da qızışmasına üzdə görünməyən səbəblər yaradır və əgər Ukrayna qalib deyil, məğlub olarsa, onda Rusiya da dayanmayacağını indidən bəyan edib. Yəni Rusiya açıq şəkildə bəyan edir ki, Ukraynadan sonra onun hədəfi Polşadır. O cümlədən, Finlandiya və İsveç də hədəfdədir və biz Baltikyanı ölkələri hələ demirik...

Təbii ki, Rusiya da bu müharibədə öz zəif cəhətlərini nümayiş etdirdi. Bu gün Rusiya ordusu da demək olar ki, tükənməkdədir və ukraynalı müdafiəçilərin bütün cəbhə xətləri boyunca sərt, kəskin müqavimət göstrərmələri əslində Rusiyanı da düşündürməyə başladıb. Amma hər necə olursa-olsun, ayı yaralıdır və yaralı ayılar daha təhlükəli görünürlər, təbiətən belə olub...

## Azərbaycanın zamanında atdığı strateji addımları və uğurlu qərarları Ukrayna tərəfindən də tətbiq edilsə idi...

Bəs nə etməli? Bu qan-qadanın qarşısı necə alınmalıdır? Bunun üçün zamanında dayanmaq, "stop" demək və danışıqlar masasına əyləşərək vəziyyəti çözmək olardı. Təəssüf ki, bu da baş vermədi və bundan sonrası da gecdir. Vasitəçilərin də cəhdləri istənilən nəticəni vermir və yenə də Azərbaycanı xatırlatmaq olar. Misal üçün, 44 günlük müharibə üçtərəfli bəyanatın qəbulu, Ermənistanın isə kapitulyasiyası ilə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi, yerdə qalan ərazilərimizdə qalmış qanunsuz erməni silahlı formalaşmalarına da zaman tanındı. Əgər verilən zaman müddəti bitərsə və onlar suveren ərazilərimizi tərk etməzlərsə, onda Azərbaycan yenidən lazımi, müvafiq və təcili addımlarını ataraq düşmənə qarşı münasibətində olanlara ağır dərs verməli olacaq. Yəni Azərbaycan Qarabağda qazandığı qələbəsi ilə zamanında dayandı və eyni zamanda humanizm siyasəti nümayiş etdirdi və bu gün də qarşısına qoyduğu məqsədlərinə doğru irəliləməkdədir. Fərrux dağının, Daşbaşı və s. yüksəkliklərin erməni quldurlarından təmizlənməsi, Xocalının, Əsgəranın, Ağdərə-Xankəndi yolunun nəzarətə alınması və hədəfə götürülməsi - bütün bunlar planlı qaydada qarşıya qoyulan məqsədlərin reallaşdırılmasını nümayiş etdirir.

Bu kimi vasitə Ukraynada müşahdə olunmadı və hazırda bu dost ölkədən ağır görüntülər, məlumatlar daxil olmağa davam edir. Baş verənlər isə həm də siyasi dərs kimi də qiymətləndirilə bilər və bu kimi hallarda Azərbaycanın geosiyasi, hərbi və strateji qərarları bir daha öz uğur tandemləri ilə seçilməkdədir.

Beləliklə, bu gün hər kəs Ukraynada baş verənlərin tezliklə dayanmasını, müharibənin başa çatmasını və tərəflərin danışıqlar masası arxasına keçməsini arzu edir. Lakin etiraf edək ki, hər müharibənin sonu sülh sazişi ilə bitsə belə, itirilənləri geri qaytarmaq olmur - Ukraynanın isə itkiləri həqiqətən də ürəkağrıdıcı və kədərlidir...

***Rövşən RƏSULOV***

SƏS
6 aprel
2022-ci il

# Neymardan ŞOK cavab:

## "Sərxoş idim, ona görə belə oldu... "



**PSJ-nin futbolçusu Neymar məşqlərə sərxoş vəziyyətdə getməsi iə bağlı iddialara cavab verib. Qol.az xəbər verir ki, jurnalist Daniel Riolo braziliyalı hücumçunun çətinliklə məşq etdiyini, hazırlığa sərxoş halda getdiyini və Paris təmsilçisni məhv etdiyini demişdi.**

Neymar "İnstaqram"da Fransa Liqa 1-in 30-cu turunda "Loryen"lə matçda (5:1) özünün ikinci qolunun vurduğu epizodun videosunu yerləşdirib və yazıb. "Sərxoş idim, ona görə belə oldu... "

2021-ci ilin yanvarından ölkədə peyvəndləməyə start veriləndən poliklinikalara üz tutanlar da oldu, vəziyyəti kənardan müşahidə etmək üçün gözləyənlər də. Elə ki qadağalar tətbiq edilməyə başlandı, peyvənd olunanların sayı artdı. Hazırda ölkədə xeyli sayda insan vaksinasiya prosesində iştirak edib.

Səhiyyə Nazirliyinin mütəxəssis eksperti Təyyar Eyvazov da İTV-yə bildirib ki, ölkədə tam peyvəndlənmə 48 faiz təşkil edir: "Biz 18 yaşdan aşağıları çıxsaq, bu rəqəm 60-70 faiz civarındadır. Artıq buster doza alanların da sayı kifayət qədərdir. Təxminən bu da 30 faizdən yuxarı, yəni 3 milyondan çox insan buster doza vurdurub". Onun sözlərinə görə, peyvənlənmə bu qaydada davam edərsə və əhali karantin rejimi ilə bağlı ehtiyatı əldən verməzsə, minimal sayda qalan qadağalar da götürülə bilər.



## Əhaliyə ŞAD XƏBƏR - Maska tələbi ləğv edilə bilər

## Bu gün
### 28 dərəcə isti olacaq

Aprelin 6-na gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq olacaq. Cənub-qərb küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 8-10° isti, gündüz 15-18° isti olacaq. Bakıda gecə 8-10° isti, gündüz 16-18° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-65 % olacaq.

Azərbaycanın rayonlarında Əsasən gecə və axşam bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 23-28° isti, dağlarda gecə 3-8° isti, gündüz 11-16° isti olacaq.



## Valideynlər övladlarını dövlət bağçalarına qoya bilmir - SƏBƏB NƏDİR?

### TƏHSİL EKSPERTİ AÇIQLADI

**"Hazırda respublikada 1677 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Məktəbəqədər təhsil müəssisələrindən 1637-si dövlət, 40-ı isə özəldir". Bu fikirləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov bildirib.**

Onun sözlərinə görə, Bakı şəhərində 387 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir: "Məktəbəqədər təhsil müəssisələrində 111 090 uşaq tərbiyə alır və uşaqların məktəbəqədər təhsilə cəlbi 14,8% təşkil edir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların yaş səviyyəsinə uyğun olaraq 1-2 yaş qruplarına 15 uşaq, 2-3 yaş qruplarına 15 uşaq, 3-4 yaş qruplarına 20 uşaq, 4-5 yaş qruplarına 20 uşaq, 5-6 yaş qruplarına 20 uşaq düşür. Uşaq bağçalarında problem təkcə yer azlığı deyil, eyni zamanda həm Bakı şəhəri üzrə, həm də kənd rayonlarında ixtisaslı kadrlara hələ də ehtiyac qalmaqdadır. Təəssüf ki, bu sahədə çalışanlar arasında qeyri-ixtisaslı və ya ümumiyyətlə, təhsil almayanlar çoxdur. Dövlət uşaq baxçalarının böyük əksəriyyəti Bakı şəhərində yerləşir. Belə ki, paytaxtda 345 müəssisə tam fəaliyyətdədir. Bu müəssisələrdə 36 977 uşaq təlim-tərbiyə alır. Bu günədək 345 məktəbəqədər təhsil müəssisəsindən 174-ü iki il ərzində dövlət vəsaiti hesabına tam təmir olunub və təminat məsələsi yüksək səviyyədə həll edilib. Dövlət tərəfindən gün ərzində 4 dəfə yüksək səviyyədə qidalanma menyusu müəyyən edilib verilsə də, təəssüf ki, uşaqlar üçün verilən qidalar daha keyfiyyətsiz və az həcmdə olur. Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması üçün apardığım araşdırmalardan sonra bu qənaətə gəldim ki, baxçalara olan tələbatı tam şəkildə aradan qaldırmaq üçün 1530 bağçaya ehtiyac var. Bu o deməkdir ki, 1-5-yaşlı bütün uşaqların uşaq baxçalarına cəlb olunması üçün hazırda infrastruktur və resurs yoxdur. Əgər bu yaş hədddinə aid uşaqların valideynləri hamısı eyni vaxtda övladlarının baxçalara getməsini istəsə, ortaya ciddi sıxlıq, xaoik vəziyyət çıxacaq. Bundan başqa, 1-3 yaşlı uşaqlarla işləyə biləcək ixtisaslı kadrların, tərbiyəçilərin ciddi çatışmazlığı mövcuddur.

Bununla bərabər uşaq bağçalarına qəbul zamanı yaranan neqativ halların aradan qaldırılması üçün qəbulu online, elektron xidmətlərin təşkili ilə həyata keçirmək və bu müəssisələrdə çalışanların bilik və bacarıqlarının yoxlanılmasını həyata keçirilmək lazımdır.

Çünki baxçalara qəbul zamanı çox cidi nöqsanlar, əsassız tələblər olurdu. Hesab edirəm ki, bu prosesin elektron qaydada olması neqativ halların sayını azaldacaq. Bir çox hallarda məhz sənəd qəbulunun birbaşa kağız daşıyıcılarla olması direktorların əsassız tələblər irəli sürməsinə gətirib çıxarırdı və yaxın ərazilərdə yaşayanlar övladlarını baxçalara qoya bilmirdilər. İndi isə əlçatımlılıq təmin olunacaq. Danılmaz faktdır ki, bağçalar körpələrin təlim tərbiyəsində mühüm rol oynayır. Hər yaş döneminin özünün xüsusiyyətləri, psixoloji, sosial, emosional standartları var. Uşaqlar o xüsusiyyətlərə, standartlara cavab verə-verə böyüyür. Beləcə, dünya praktikasında uşaq inkişafının standartları meydana çıxır. İndi həmin o standartların tətbiqi üçün bir müəssisə lazımdır. Lakin kiçik yaşlıların bağçalara cəlb olunması baxımından Azərbaycandakı göstəricilər dünya aparıcı dövlətlərlə müqayisədə çox aşağıdır. Hələ bağçaların sayının çox olduğu Bakı şəhərində məktəbəqədər yaş qrupunda olan uşaqların 25 faizi məktəbə bağçalardan gəlir. Təəsüflər olsun ki, maddi-texniki baza, binalar da bəs eləmir ki, digər 75%-lik uşaqda bağçalara cəlb olunsun. Dünya təcrübəsindən qeyd edim ki, Amerikanı götürsək, bağçaların 80%-i özəldir. Həmin bağçalarda olan şərait dövlət hesabında olan məktəbəqədər müəssisələrdən daha yaxşı qurulub. Dövlətin üzərinə az yük düşür. 2011-ci ildə prezidentin sərəncamı ilə baxçalar Təhsil Nazirliyindən alınıb İcra Hakimiyyəti Orqanlarına verildi. Bundan sonra baxçaların fəaliyyəti diqqətdən kənarda qaldı. Ancaq bizdə bu sahəyə kifayət qədər vəsait ayrılsa, özəl bağçaların şəbəkəsi genişləndirilməlidir. Pərakəndə şəkildə olmamalıdır. İş adamları özəlləşdirmək istədikləri bağçaları standartlara uyğunlaşdırmalıdırlar. Bəzi vaxtlar özəlləşdirilən bağçalar məktəbəqədər müəssisə kimi də fəaliyyət göstərmir. Düzdür, son illərdə ölkədə məktəbəqədər təhsil müəssisələri dünya standarlarına yaxınlaşdırılıb. Amma normativlər - uşaq bağçasının quruluşu, işləmə metodu, idarəedilməsi baxımından isə hələ dünya standarlarına cavab vermir. Bizim məktəbəqədər təhsil müəssisələrinin quruluşu ilə bağlı normativlər sovet dönəmində hazırlanan normativlər əsasında hazırlanıb. Bu gün də o normativlər tətbiq olunur. Bu günün reallıqları da o normativlərlə uyğunlaşmır. Məsələn, məktəbəqədər təhsil müəssisələrinin otaqlarının sahəsi ilə bağlı normativlər var. Tədris otağı 20, uşaq otağı isə 50 kvadratmetr olmalıdır. Doğrudur özəl bağçaları da istər qidalanma, istər tədris dövlət bağçaları ilə müqayisədə yaxşı təşkil olunub. Burda çalışan işçi - tərbiyəçilər uşaqlara daha həssas yanaşırlar. Lakin özəl bağçalar müstəqil kommersiya fəaliyyəti həyata keçirdiyi üçün hansısa təhsil qurumunun onun fəaliyyətinə müdaxilə etməsi, yoxlanılması mümkün deyil . Qanunvericilik yalnız onların təhlükəsizlik, vergi, sanitar qaydalara riayət edib-etməməsini yoxlaya bilir. Təəsüf ki, heç bir qrum baçlarla bağlı yoxlama aparmır".



***Abutel İlhamqızı***

ELAN

Hörmətli səhmdarlar səhmdarı olduğunuz «Təmir-Tikinti AzNY»QSC-nin səhmdarlarının ümumi yığıncağı 27 may 2022-ci il tarixində, saat 10.00-da Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1 ünvanında keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. 2021-ci ilin maliyyə hesabatının təsdiqi.
2. Dividentlərin bölüşdürülməsinə dair.
3. Digər məsələlər.

Bildiririk ki, COVİD-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Qərargahın qaydalarına dəyişiklik olarsa yığıncaq dəyişikliyə uyğun olaraq keçiriləcəkdir.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 18.00-dək QSC-nin idarə heyyətinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.
Əlaqə telefonu: 050-250-19-26

Hörmətlə, idarə heyyətinin sədri Z.S.Quliyev

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**